www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 dekabr 2015-ci il Çərşənbə axşamı № 285 (6313) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakı Nəqliyyat Agentliyi yaradıldı

yazısı səh.2-də

**Gündəm**

### "MTN işi"nin əsas fiqurantı özünü asdı, yoxsa...



İlqar Əliyevin müəmmalı ölümü ilə bağlı ən son bilgilər; keçmiş rəis müavini "Qurd qapısı"nda basdırıldı

yazısı səh.4-də

### Müxalifət devalvasiyaya görə etiraz aksiyaları keçirmək istəmir

yazısı səh.5-də

### ABŞ-da dünyanın gələcəyini müəyyən edən seçkilər: "fəlakət namizəd" kimdir?

yazısı səh.9-da

### Dolların qalxması ərzağın qiymətini də qaldırdı

yazısı səh.11-də

### Müxalifət "manatın devalvasiyası dərsi"ndən 2 aldı, imtahandan kəsildi

yazısı səh.12-də

### Valyutadəyişmə məntəqələri qapılarını bağladı

yazısı səh.11-də

### Bern görüşündən sonra Ohanyan Qarabağa, Sərkisyan Moskvaya getdi...

yazısı səh.13-də

### ANS-dən Qənirə Ataşova qalmaqalında inkar taktikası...

yazısı səh.12-də

### Dəm qazı daha iki can aldı

yazısı səh.14-də

### Prezident əlil və şəhid ailələrinə 10 milyon manat ayırdı

yazısı səh.2-də

### Məhkəmə Telman İsmayılovu müflis elan etdi

yazısı səh.2-də

### Dövlət Filarmoniyasının direktoruna şiddətli töhmət verildi

yazısı səh.14-də

## Vətəndaşımız üzüntüdə: dollar və avro 50 faiz bahalaşdı

# QARA BAZAR ERTƏSİ - "YAŞIL İNQİLAB" ÖLKƏNİ ÇALXALAYIR

Mərkəzi Bank fevral devalvasiyası ərəfəsində olduğu kimi, yenə də xalqı aldatdı; bir gecədə manatı yarıbayarı qiymətdən salmağın izahı verilməlidir; son 10 ayda ölkə vətəndaşının maddi cəhətdən çökdürülməsi prosesi gedir və hökumət təcili tədbirlər görməlidir...




yazısı səh.8-də

## Azərbaycan İslam koalisiyasına doğru - seçim anı yaxınlaşır

İşğalçı Ermənistanın müttəfiqi İrandansa, qardaş Türkiyənin yanında yer almalı; təhlükəni öz evində gözləməkdənsə, ona qarşı getmək daha yaxşıdır...

yazısı səh.9-da



Əli Həsənov

### Prezidentin köməkçisi manatdan danışdı: "Qaçılmaz idi"

yazısı səh.3-də



### Eldar Sabiroğlunun oğlu prokurorluq orqanlarından qovuldu

yazısı səh.6-da



### 10 ayda xalqı iki dəfə aldadan Elman Rüstəmov... qandallanmalıdırmı?

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 285 (6313) 22 dekabr 2015



## Prezident əlil və şəhid ailələrinə 10 milyon manat ayırdı

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

- Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamının 1-ci hissəsinin icrası ilə əlaqədar, Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 10,0 (on) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

## Bakı Nəqliyyat Agentliyi yaradıldı

**Prezident İlham Əliyev Bakı şəhərində nəqliyyat sahəsində islahatların keçirilməsinə dair əlavə tədbirlər haqqında fərman imzalayıb. Fərmanda bildirilir: "Son illərdə həyata keçirilən hərtərəfli yenilənmə, sistemli və kompleks tədbirlər nəticəsində sürətlə inkişaf edən Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri müasir meqapolisə çevrilmişdir.**

İri iqtisadi və inzibati mərkəz olan, Avropa və dünya miqyaslı bir sıra mötəbər tədbirlərə ev sahibliyi edən Bakı şəhərinin bugünkü simasına uyğun olaraq paytaxtın nəqliyyat sisteminin və infrastrukturunun inkişafı, sərnişindaşıma xidmətinin müasir tələblərə uyğun təşkili istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir və hazırda bu işlər davam etdirilir.

Əhali sıxlığının, intensiv hərəkətin artdığı hazırkı dövrdə bu sahədə əldə olunmuş müsbət nəticələrin səmərəliliyinin yüksəldilməsi, Bakı şəhərində nəqliyyat infrastrukturunun və şəhər nəqliyyatının işinin daha da yaxşılaşdırılması, o cümlədən ictimai nəqliyyatın tənzimlənməsi, sərnişindaşıma marşrutlarının optimallaşdırılması və nəqliyyat sahəsində xüsusi idarəetmə modelinin formalaşdırılması ilə bağlı yeni çağırışlar yaranmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Bakı şəhərində nəqliyyat sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi, sərnişinlər üçün beynəlxalq standartlara uyğun avtomobil nəqliyyatı xidmətinin təşkilinin genişləndirilməsi, avtomobil nəqliyyatı ilə sərnişin daşınması qaydalarına nəzarətin gücləndirilməsi, nəqliyyatın hərəkətinin tənzimlənməsi və bu sahədə islahatların davam etdirilməsi məqsədi ilə qərara alıram:

- Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi yaradılsın.

Fərmada həmçinin qeyd edilir:

- Bakı Nəqliyyat Agentliyinə tapşırılsın ki, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsinə aid normativ hüquqi aktların müddəalarına riayət edilməsinə nəzarətin həyata keçirilməsi, habelə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması üçün tədbirlər görsün.

- Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin tabeliyində olan "Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti Agentliyin tabeliyinə verilsin.

- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma zamanı sərnişin və baqaj daşınması qaydalarını pozan şəxslər barəsində tədbir görülməsində Agentliyə kömək göstərsin, habelə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma xidmətlərində ictimai asayiş qaydalarına riayət olunmasına nəzarəti gücləndirsin.

Nazirlər Kabinetinə bu fərmandan irəli gələn tədbirləri görmək tapşırılıb.

# Manat fəlakəti və batan Azərbaycan qəzetləri

### Ələsgər Süleymanov: "Vəziyyət kritikdir, təcili tədbirlər görülməlidir..."



**Manatın devalvasiyası mediaya da təsirsiz ötüşməyəcək. Qəzet bazarında son illər davam edən prosesdə "manat zərbəsi" daha ciddi izlər qoyacaq.**

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov** bizə açıqlamasında son durumu təhlil etdi. O dedi ki, əslində bugünkü devalvasiya xəbəri barədə daha öncə danışılsa da, yenə də əhali üçün gözlənilməz oldu: "Çünki müxtəlif iqtisadçılar, bu sahənin ekspertləri proqnoz verirdilər ki, hökumət ikinci devalvasiyaya imkan verməyəcək. Rəsmi şəxslər, konkret olaraq, Milli Bank sədri də bildirirdi ki, kəskin devalvasiya gözlənilmir. Bu məlumatlar əsasında hamı da gözləyirdi ki, manatın məzənnəsi üzən məzənnəyə keçsə də, cüzi fərq edəcək və manatın düşməsi tədricən baş verəcək. Amma birdən-birə xəbər tutduq ki, dollar 50 % bahalaşdı. Birinci devalvasiyada biz 33 faizlik düşüş gördüksə, sonuncu məzənnə ilə müqayisədə 48 faiz devalvasiya getdi. Birinci devalvasiyadan əvvəlki vəziyyətlə müqayisədə götürəndə bu, 98 faiz devalvasiya deməkdir. Bu o deməkdir ki, manat dollarla müqayisədə iki dəfə dəyərdən düşüb".

**Ə.Süleymanov bu fonda qəzetlərin düşdüyü durumu da təhlil etdi. Dedi ki, ümumiyyətlə, qəzetlərin durumu əhalinin durumu kimi acınacaqlıdır:** "İndiyə qədər qəzeti çətin vəziyyətdə, güclə saxlayırdıq. Bizim gəlirlərimiz olduğu kimi qalmaq şərtilə xərclərimiz iki dəfə artacaq. Bizi gözləyəcək aqibətin necə olacağını proqnozlaşdırmaq çətindir. Böyük ehtimalla, ixtisarlara, xərclərin azaldılmasına gedəcəyik. Amma KİVDF xətti ilə ayrılan pullara gələndə, artıq bu, iki dəfə dəyərdən düşmüş sayılır. Çünki indiyə qədər biz o layihə üçün büdcə verir, plan-prospekt yazırdıq. İndi həmin xərclər iki dəfə artmalıdır. Ümid edirik ki, yanvar ayındakı pul ayırmaları zamanı KİVDF bu məsələni nəzərə alacaq".

**Devalvasiya fonunda qəzet qiymətlərinin artırılmasına gəlincə, müsahibimiz dedi ki, qəzetin qiymətini birinci devalvasiyadan sonra artırmadılar:** "Fikirləşirdik ki, onsuz da maddi vəziyyəti pis olan əhalini bir tərəfdən də biz yükləməyək. Özümüzü ağır iqtisadi vəziyyətə sürükləmək bahasına da olsa qiyməti saxlamışdıq. Sonuncu devalvasiyadan əvvəl qərar vermişdik ki, qəzetin qiymətini cüzi olsa da, qaldıraq. Bu barədə bütün yayım firmalarına məktublar göndərilmişdi. Bugünkü devalvasiya 50 qəpiyin özünü də elə vəziyyətə qoydu ki, bu qiymətlə nə edə biləcəyimizi düşünürük. 50 qəpiklə bağlı qərar verilmişdi - yanvarın 1-dən belə olmalıdır. Son devalvasiyadan sonra vəziyyəti müzakirə edəcəyik. Vəziyyət kritikdir. Təcili tədbirlər görülməlidir. Qənaət, ixtisarlar edilməlidir. Əks halda, qəzetin fəaliyyətini dayandırmaq məcburiyyətində olacağıq".

❑ **Sevinc TELMANQIZI**



## Şura QHT-lər üçün məlumatlandırma sessiyası keçirib

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında 2016-cı ilin birinci qrant müsabiqəsi ilə bağlı QHT-lər üçün məlumatlandırma sessiyası keçirilib.**

Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov çıxış edərək müsabiqəyə 10 istiqamət üzrə 56 mövzunun təqdim edildiyini bildirib. Katibliyin icraçı direktoru həmçinin müsabiqənin şərt və qaydaları ilə bağlı sessiya iştirakçılarına ətraflı məlumat verib. F. Qurbanov QHT-ləri daha effektiv və cəmiyyət üçün aktual mövzularda layihə təklifləri ilə çıxış etməyə çağırıb.

Sessiyanın sonunda QHT nümayəndələrinin sualları cavablandırılıb.

## Cahangir Hacıyevin şikayəti təmin edilməyib

**Bakı Apelyasiya Məhkəməsində Beynəlxalq Bankın İdarə Heyətinin həbsdə olan sabiq rəhbəri Cahangir Hacıyevin apelyasiya şikayətinə baxılıb. APA-nın məlumatına görə, məhkəmə şikayəti təmin etməyib. Qeyd edək ki, dekabrın 5-də Nərimanov Rayon Məhkəməsinin qərarı ilə C. Hacıyevin barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.**

Həmin qərarın ləğv olunması barədə verilən apelyasiya şikayəti isə təmin edilməyib. C. Hacıyev Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələrinə əsasən ittiham olunur. Dekabrın 12-də C. Hacıyev barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması barədə vəsatətlə Nərimanov Rayon Məhkəməsinə müraciət edib. Lakin məhkəmə vəsatəti təmin etməyib. Apelyasiya şikayəti həmin qərardan verilib.



## Tarif Şurasından benzinin qiyməti ilə bağlı açıqlama

**Azərbaycanda benzinin qiymətinin artacağı ilə bağlı müxtəlif fikirlər yayılıb.**

BAKU.WS-in məlumatına görə, sosial şəbəkələrdə bildirilir ki, manatın dollara nisbətdə 50 faiz ucuzlaşmasından sonra yanacaq məhsulları və benzinin qiyməti artıb.

Məsələni araşdırmaq üçün Tarif Şurası ilə əlaqə saxlayan BAKU.WS-ə qurumdan bildiriblər ki, yayılan söz-söhbətlərin heç bir əsası yoxdur.

"Bununla bağlı heç bir müraciət daxil olmayıb. Yaxın günlərdə də enerjidaşıyıcılarının qiymətinin qaldırılması ilə bağlı məsələ gündəmdə deyil", - deyə qurumdan bildirilib.




## Məhkəmə Telman İsmayılovu müflis elan etdi

**Məşhur azərbaycanlı oliqarx, Rusiyanın ən varlı şəxslərindən biri sayılan Telman İsmayılov barəsində məhkəmə hökmü çıxıb. Ölkə.az xəbər verir ki, Moskva vilayətinin arbitraj məhkəməsi oliqarxın müflis olduğunu təsdiq edib.**

Xatırladırıq ki, Telman İsmayılovun borclandığı Boris Zubkov 19 noyabr tarixində məhkəməyə müraciət etmişdi. Ondan əvvəl, oktyabr ayında isə Moskva bankı Telman İsmayılovun müflis olduğu haqda məhkəmədə iddia qaldırmışdı. Dünən məhləmə faktı təsdiq edib və İsmayılovun müflis olduğunu tanıyıb.

Qeyd edək ki, adıçəkilən bank 2012-2014-cü illər arasında Telman İsmayılova məxsus iki şirkətə ümumilikdə 230 milyon dollar kredit verib və hazırda bu pulu qaytarmaq üçün çalışır.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 285 (6313) 22 dekabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**"Bildiyiniz kimi, Azərbaycan hakimiyyəti milli valyutamızın sabit qalması üçün dünənə qədər mümkün olan bütün addımları atdı və tədbirləri gördü. Baxmayaraq ki, əksər neft istehsal edən ölkələr, o cümlədən Azərbaycanın yaxın ticarət və iqtisadi tərəfdaşları, MDB ölkələri öz pul siyasətlərinə xeyli əvvəl dəyişiklik etmişdilər. Mütəxəssislər yaxşı bilir ki, müdaxilə yolu ilə valyutanın sabitliyinin qorunması dövlətə nə qədər çətin itkilər hesabına başa gəlir".**

# Prezidentin köməkçisi manatdan danışdı: "Qaçılmaz idi"

## Əli Həsənov: "Dünyadakı iqtisadi böhran, üstəlik, beynəlxalq konyuktura, neftin kəskin ucuzlaşması və s. Milli Bankın son qərarını qaçılmaz edib"



**Bunu Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov APA-ya müsahibəsində manatın üzən məzənnəyə keçidi ilə bağlı suala cavabında deyib:** "Lakin o da bəllidir ki, "üzən kurs"a keçid də cəmiyyət üçün itkisiz başa gəlmir və özü ilə bir çox sosial-iqtisadi problemlər gətirir, dövlətin daxili həyatına, ictimai rəyə mənfi təsirsiz ötüşmür. Son günlər Azərbaycanda hamıya bəlli idi ki, "üzən kurs"a keçid prosesi qaçılmaz həddə çatıb və Milli Bank bununla hesablaşmaq məcburiyyətindədir. Bilirsiniz ki, neçə vaxtdır dünyada iqtisadi böhran yaşanır, ölkələrin əksəriyyətində milli istehsal və gəlirlər azalır, valyutalar dəyərini itirir. İqtisadi qüdrətindən və potensialından asılı olmayaraq, əksər ölkələrdə - dünyanın ən qüdrətli dövlətlərindən olan Çindən tutmuş, kiçik dövlətlərə qədər - bütün ölkələrdə milli valyuta sürətlə dəyərdən düşür. Bizim ən yaxın ticarət tərəfdaşlarımız - Rusiya, Türkiyə, İran, Qazaxıstan, Gürcüstan və digərlərinin milli valyutaları çoxdan sərbəst buraxılmışdı ki, bu da onlarla iqtisadi və ticarət əlaqələrimizə problemlər yaradırdı. Azərbaycanın daxili istehsalı manatın sabit və yüksək kursu səbəbindən getdikcə aşağı düşürdü. Belə bir vəziyyətdə, manatın kursunun sərbəstləşdirilməsi qaçılmaz idi. Yalnız Azərbaycan hakimiyyəti əhalinin sosial vəziyyətinə mənfi təsir göstərə biləcək prosesləri mümkün qədər ağrısız etməyə və ləngitməyə çalışırdı. Amma bilirsiniz ki, ölkəmiz qlobal dünyanın bir hissəsidir və biz də planetimizdə yaşanan iqtisadi proseslərlə ayaqlaşmaq, buna uyğunlaşmaq məcburiyyətində qaldıq. Bir faktı da qeyd etmək istəyirəm ki, Azərbaycan neft ölkəsidir və bizim kimi ölkələr dövlət büdcəsinin əsas gəlir mənbəyi olan neftin kəskin ucuzlaşması faktorunu nəzərə almaya bilməz. Bu ilin əvvəlindən dünya bazarlarında neft və neft məhsullarının qiyməti 3 dəfə ucuzlaşıb. Bu hal müvafiq olaraq, Azərbaycanın neft gəlirlərinin də 3 dəfə azalması deməkdir. Əsas gəlir mənbəyi neft olan digər ölkələr, o cümlədən bizim yaxın qonşularımız artıq bu ilin əvvəlindən milli valyutalarının kursunu sərbəst buraxmaq məcburiyyətində qaldığı halda, Azərbaycan Milli Bankı bu kəsiri uzun müddət öz ehtiyatları hesabına ödəməyə çalışdı. Lakin bu prosesi daim valyuta ehtiyatları hesabına tənzimləmək gələcəkdə ölkənin iqtisadi vəziyyətinə daha böyük zərbələr vura bilərdi. Çünki dünya bazarlarında neftin qiymətlərinin yaxın vaxtlarda bahalaşmayacağı hamıya aydındır. Təbii ki, bu, yalnız obyektiv bazar qanunları ilə bağlı proses deyil, ortada subyektiv səbəblər də var və bunun ən başlıcası ABŞ-Rusiya münasibətləridir. Hadisələri izləyən hər kəs üçün aydındır ki, Rusiya ilə geosiyasi rəqabətin gücləndiyi bir şəraitdə Birləşmiş Ştatlar öz rəqibini iqtisadi cəhətdən zəiflətmək üçün dünya bazarında neftin qiymətlərinə süni yolla təsir göstərmək siyasətini seçib. Bunun üçün Vaşinqton əvvəlcə OPEK-i nəzarətə götürdü və bu təşkilatın qiymətlərlə bağlı qərar qəbul etmək imkanını müxtəlif üsullarla məhdudlaşdırdı. Bunun ardınca Birləşmiş Ştatlar xaricə neft satışına qoyulmuş 40 illik qadağanı ləğv etdi. Nümayəndələr Palatasının bu qadağanın ləğvi barədə qanun layihəsini dəstəkləməsi dünya bazarlarına neftin sürətlə ucuzlaşması fonunda baş verirdi. Bu qərarı da iqtisadiyyat qanunları ilə izah etmək mümkün deyil. Çünki ABŞ neft satışına qiymətin rekord həddə yüksək- az qala, 150 dollar olduğu zaman deyil, rekord həddə ucuz - 37 dollar olan zaman başlaması sübut edir ki, məqsəd, qanun layihəsinə göstərildiyi kimi, "iqtisadi inkişaf və istehsalatın artmasından çox, qiymətlərin bu yolla tənzimlənməsindən" gedir. Nəhayət, neft satışına qoyulan qadağanın ləğvi ilə eyni vaxtda ABŞ Federal Rezerv Sisteminin uçot dərəcəsini artırması da dolların mövqeyini möhkəmləndirməklə yanaşı, digər ölkələrin valyutalarını zəiflətdi. Bu, onsuz da ucuzlaşmış nefti bir qədər də qiymətdən saldı və nəticədə neft satan ölkələrin gəliri daha da azaldı. Azərbaycanın qonşusu olan İranın da gələn ildən öz neftini dünya bazarına çıxartmağa hazırlaşdığını nəzərə alsaq, bu prosesin yaxın vaxtlarda nizama düşməsi çox mürəkkəb görünür.

Bir sözlə, dünyadakı iqtisadi böhran, Azərbaycanın yaxın ticarət tərəfdaşlarının milli valyutalarının sərbəst buraxılması, üstəlik, beynəlxalq konyuktura, neftin kəskin ucuzlaşması və s. Milli Bankın son qərarını qaçılmaz edib. Lakin bu o demək deyil ki, hakimiyyət bu prosesi öz axarına buraxıb heç bir tənzimləyici mexanizmlərdən istifadə etməyəcək. Hökumətimiz İlk növbədə, çalışacaq ki, sosial müdafiəyə ehtiyacı olan vətəndaşlar üçün bu prosesi maksimum ağrısız etsin. İndiki şəraitdə daxili istehsalın stimullaşdırılması, kölgə iqtisadiyyatının hələ də haradasa qalan digər sahələrini - monopoliyaları, korrupsiya hallarını, sahibkarların fəaliyyətinə süni maneələr törədilməsini və s. aradan tam qaldırmaq üçün bütün addımlar atılacaq. İndiki mərhələdə əsas məqsəd devalvasiyanın qaçılmaz olan mənfi fəsadlarını yeni bazar mexanizmləri ilə kompensasiya etməkdir. Və vətəndaşlarımız əmin olsunlar ki, Azərbaycan hakimiyyəti bunun üçün bütün lazımi tədbirləri görəcək".

***- Bu yaxınlarda ABŞ-ın Helsinki Komissiyasının sədri, konqresmen Kris Smit Konqresə Azərbaycana qarşı bəzi sanksiyaların tətbiq olunması ilə bağlı layihə təqdim edib. Bu təşəbbüsü necə qiymətləndirirsiniz və onun perspektivini necə görürsünüz?***

- Bilirsiniz, Azərbaycan belə məsələlərə yanaşmada ayrı-ayrı ermənipərəst siyasətçilərin deyil, tərəfdaş olduğu dövlətlərin rəsmi mövqeyini əsas götürür və siyasətini də bu mövqeyə uyğun olaraq qurur. Kris Smitin bu qərəzli addımı isə hələ ABŞ rəsmilərinin və Ağ Evin mövqeyi demək deyil. Bu konqresmeni Azərbaycanda yaxşı tanıyırlar, onun hələ 2000-ci illərdən mütəmadi olaraq erməniprəst bəyanatlar və təşəbbüslərlə çıxış etdiyini, hər vəchlə Azərbaycanın ABŞ-la münasibətlərinə kölgə salmağa çalışdığını, özünü Konqresdə seçildiyi Nyu-Cersinin deyil, sanki Ermənistanın Abovyan vilayətinin təmsilçisi kimi apardığını çox yaxşı bilirik. Kris Smit ABŞ-ın qondarma "erməni soyqırımı"nı tanıması üçün canfəşanlıq edən çoxsaylı erməniprəst konqresmenlərdən biridir. Elə bu il ərzində o bir neçə dəfə "soyqırım"ın tanınması zərurəti ilə bağlı bəyanat verib, hətta ABŞ prezidentinə müvafiq yalvarış-müraciət də imzalayıb. Bir sözlə, bu adamın reputasiyasına münasibətim necədirsə, onun hazırladığı layihəyə də eynilə o cürdür. Əsas odur ki, indiyədək rəsmi Vaşinqton K.Smitin nə "erməni soyqırımı", nə də Azərbaycana qarşı hər hansı təşəbbüslərinə əhəmiyyət verməyib. Odur ki, bu məsələni ciddiyə almaq lazım deyil. Ümid edirik ki, Smitin budəfəki hərəkəti də ABŞ rəsmiləri tərəfindən rədd ediləcək və bu layihə erməniprəst qüvvələrin həyata keçməyən növbəti arzularından biri olaraq tarixə düşəcək. Əslində Smit xarakterli siyasətçilər hər bir ölkədə var. Azərbaycanda da ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinə erməniprəst mövqedən yanaşdığını, ölkəmizə qarşı bəzən qərəzli mövqedən çıxış etdiyini, erməni diasporu və lobbisinin təsiri altına düşdüyünü düşünən insanlar var. Onlar da Azərbaycan hakimiyyətindən ABŞ-la strateji tərəfdaşlığa son qoyulmasını, ölkəmizə qarşı qərəzli yanaşmalara adekvat cavab verilməsini tələb edirlər. Lakin qeyd etdiyim kimi, biz bütün digər ölkələrlə əlaqələrlə olduğu kimi, ABŞ-la da münasibətlərin inkişafında maraqlıyıq, ayrı-ayrı çağırışların ikitərəfli münasibətlərə xələl gətirməsinə imkan vermirik.

Amma təbii ki, ABŞ rəsmi şəkildə bu qərəzli layihəyə dəstək verərsə, erməniprəst qüvvələrin "oyunu"na gedərsə, o zaman Azərbaycan hakimiyyəti buna lazımi reaksiya verəcək - buna heç kəsin şübhəsi olmasın.

---

# Borcumu Elmana bağışlayıram



**Aygün MURADXANLI**

**Proqnozlaşdırılan pis sürpriz baş verdi - manat öldü. Yığışıb mərhumu yerdən götürərdik, ancaq özümüzü yerdən götürən lazım.**

Neçə aydı iqtisadçılar deyir ki, neft bostanın axırında elə ləklərin qırağından vedrəsi 20 qəpiyə satılan pomidorun gününə düşüb, manat öləcək, hökumət tədbir almalıdır, hökumət deyir, elə şey yoxdu, devalvasiya gözlənilmir. Milli Bank cəmi 3 gün qabaq elan elədi ki, ölkənin valyuta ehtiyatları var, manatın növbəti dəfə ucuzlaşacağı haqqında xəbərlər şişirdilib. Dövlət xəzinəsindən verilən rəsmi açıqlamadan cəmi 3 gün sonra manat 47 faiz öldü. Yarıbayarı...

Adam bilmir Elman Rüstəmovu baş bankir adlandırsın, yoxsa baş cibgir, ya da baş gopçu. Bir əli elə cibimizdədi. Fevralda cibimizin 3-dən birini aparmışdı, bu dəfə də təxminən yarısını silib-süpür eləyib.

Dolların havalara uçmasından hamıya ziyan dəyəcək. Hamı deyəndə ki, millətdən oğurlamaq, oğurladığını dollara çevirib ölkədən çıxarmaq imkanı olmayanlara. Azərbaycanda sənaye, istehsal adında demək olar, heç nə yoxdu. 5-6 min banka tamat-şoraba bağlayan, bir rayonun belə illik ehtiyacını ödəmək gücündə olmayan dəyirmanlardan, şəkər, pendir zavodlarından millətin gözünə pərdə tutmağa nə gərək var? Mənzərə ortadadır... Bol torpağına 9 ay gün düşən ölkəyə ən elementar ərzaqlar belə xaricdən gətirilir. Xaricdən gətirilir nə deməkdi? O deməkdi ki, onları dollarla alırlar. Dollarla alırlarsa, istehlakçıya da günlük məzənnəyə çevirib satacaqlar. Ona görə də sabah marketdə yerkökü ət, konfet balıq qiymətinə olsa, çaşıb-eləməyin, reallıq belədi.

Milli valyutanın 47 faiz ucuzlaşmasından ən çox yanan banklarda dollarla krediti olanlardı. Yatırsan, yuxudan durub görürsən ki, banka hər 1000 dollar üçün 470 manat əlavə ödəyəcəyin var. Özü də hələ bu son deyil haaa. Elman Rüstəmov açıqlama verib ki, manatı buraxıblar ekonomi adlı dəryaya, üzə bildikcə, üzəcək. Sadə desək, hələ bahalaşma davam edəcək, dollar üzüb nə qədər dərinə getsə, borcu olanların "boğulma faizi" də ona adekvat olacaq. Kefdəyik...

Ola bilər, banka iri məbləğdə borcu olanların 3-5 əmlakı var, birini o birinə calayıb böhrandan bir təhər çıxacaq. Bəs evinə xırım-xırda əşya, mebel, 2-ci, 3-cü əl maşın almaq üçün banklardan 3-5 min dollar kredit götürən yüz minlərlə yetimin halı necə olacaq? Onlar bu il 34 faizlik devalvasiya sürprizi ilə onsuz da çətin duruma düşmüşdülər... Heç onlara vətəndaş deməyə adamın dili gəlmir. Vətəndaşın dövlət adında atası olur. O ata övladını çapıb-talamır, öz pulunu ona od qiymətinə satmır, əksinə, sərvətini səhmanla, həm də uzun müddət işlətməsi üçün nizam yaradır. Adına "yetim" dediyimiz o təbəqə illərdir milyardların havaya sovrulduğu ölkədə özünə bir balaca şərait düzəltmək istəyib, ancaq hökumətin tamahkarlığı üzündən düşüb 40 arşın quyunun dibinə.

Bunun kirayədə yaşayanı var, hər ay uşağının repititoruna filan qədər pul ödəyəni var, iş yeri bağlananı var, xəstəsi olanı, xeyir var, şər var... Bu boyda "yoxdu"nun içərisində qayğılar var, var, var... Dolların 47 faiz bahalaşması həyatın ən azı 2 dəfə qiymətə minməsi deməkdir. Hökumətin savadı kasad iqtisadçılarından fərqli olaraq ölkədə iqtisadi reallıqlarını düzgün proqnozlaşdıra bilən ekspertlər var. Onların proqnozları çox bədbindi - manat Türkiyə lirəsi kimi 1 dollar - 3 manat səviyyəsinə çata bilər.

Neft su qiymətinə olanda arxasında neftdən başqa heç bir ciddi faktor dayanmayan valyutanın günü başqa necə ola bilər? İqtisadçılar deyir, Amerika və İranın yaxın aylarda dünya bazarına neft çıxarması ilə neft bazarında elə bir bolluq yaranacaq ki, 2014-də 135 dollardan fırıldayan Azərbaycan nefti 17-20 dollardan müştəri tapanda Rövnəq Abdullayevlə Şahmar Mövsümov "Azneft" meydanında "Yallı" gedəcək.

2 il qabaq dollarla kredit götürmüşdüm, özü də fantastik 28 faizlə. Guya bundan aşağı faiz var?.. Fevral devalvasiyası olmasaydı, üzümüzə gələn fevralda bitirəcəkdim. Onda 34 faiz yüklədilər, dünən də yenidən 47 faiz. Götürdüyüm məbləği artıqlamasının da artıqlaması ilə banka qaytarmışam. Düşündüm, daşındım, qalan borcumla bağlı qərar verdim - onu baş bankir Elman Rüstəmova bağışlayıram. Yuxuda nə görsə, sabah da durub həmin məzənnə ilə özü ödəyər. Məndən bu qədər...

YENİ MÜSAVAT
N 285 (6313) 22 dekabr 2015

# "MTN işi"nin əsas fiqurantı özünü asdı, yoxsa...

## İlqar Əliyevin müəmmalı ölümü ilə bağlı ən son bilgilər; keçmiş rəis müavini dəfn edildi

**Ləğv olunmuş MTN-in Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyev saxlanıldığı Bakı İstintaq Təcridxanasında (BİT) özünü asıb. Onu oktyabrın 17-də Eldar Mahmudov vəzifədən qovulandan sonra saxlayıb ittiham elan etmişdilər. Sonradan Səbayel Rayon Məhkəməsinə aparılan İ.Əliyev barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilmiş və BİT-ə göndərilmişdi.**




BİT-dəki kamerada ölümündən sonra İ.Əliyevin meyiti Sabunçu Rayon Məhkəmə Tibb Ekspertizasına aparılaraq orada xarici və daxili müayinədən keçirilib. Ekspertlərin ilkin rəyinə görə İ.Əliyev asfiksiyadan - boğulma nəticəsində əmələ gələn nəfəs çatışmamazlığından dünyasını dəyişib. Sabiq MTN-çinin xarici müayinəsi zamanı bədəni üzərində boynundakı stranqulasiya şarımından savayı iz aşkar olunmayıb. Qeyd edək ki, belə bir rəyin ortada olması İlqar Əliyevə ölməyə "kömək" edilməsi haqda fikirləri şübhə altına alır.

### İlqar Əliyevin qəbir yeri əvvəldən hazır imiş...

İ.Əliyevin meyiti müayinədən sonra gözlənilənlərin əksinə olaraq doğulduğu Göyçayın Çərəcə kəndinə aparılmadı. Onu dekabrın 21-də Bakıdakı "Qurd qapısı" deyilən ərazidəki qəbiristanlıqda günorta basdırdılar. Dəfn o qədər sürətlə və yarıməxfi şəkildə həyata keçirilib ki, hətta İ.Əliyevin bir çox yaxınları belə iştirak edə bilməyiblər. Həmçinin məlum olub ki, İ.Əliyevin dəfn olunduğu qəbir yerini atası Mustafa Əliyev bir qədər əvvəl alıb. Bir neçə qəbir yeri üçün nəzərdə tutulan ərazi daş hasara alınıb və bir kənarıda M.Əliyevə məxsusluğunu bildirən onun soyad və adının baş hərfləri - "Ə.M" daş üzərinə yazılaraq vurulub.





### İntihar etmiş polkovnik kimdir?

İlqar Əliyevin avtobioqrafiyası haqda məhdud məlumatlar var. Bildirilir ki, İlqar Əliyev 1968-ci ildə Göyçayın Çərəcə kəndində, Çərəkə kolxozunun sədri olan Mustafa Əliyevin ailəsində dünyaya gəlib. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib. 2 övlad - 8 yaşlı qız, 5 yaşlı oğlan atası olan İ.Əliyevin MTN-ə gəlişi haqda isə belə bir xəbər var. Bildirilir ki, onun həmin qurumda işə götürülməsində MTN Xətai şöbəsinin vaxtilə rəisi olmuş qohumunun rolu olub. Həmin şəxsin İ.Əliyevin atası "Mister Mustafa" kimi tanınan Mustafa Əliyevlə münasibətləri sonuncu Çərəkə kolxozunun sədri olan dövrə təsadüf edib. M.Əliyevin kolxozda sədrlik dövründə geniş imkanlara sahib olduğu və sonradan övladlarının təhsil almasında, işə düzəldilməsində də həmin imkanların karına gəldiyi bildirilir.

İ.Əliyev Baş Prokurorluğun araşdırdığı "MTN işi" üzrə əsas fiqurantlardan biri idi. Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun yaxın çevrəsinə daxil olan bu şəxsin adı jurnalistlərə, sahibkarlara qarşı həyata keçirilən qanunsuzluqların əsas icraçısı kimi hallanırdı. Bu haqda mətbuatda kifayət qədər məlumat var. Onun qəfil ölümü çoxsaylı suallar yaradıb. Belə bir yüksək çinli MTN-çinin saxlanıldığı təcridxanada özünü asmasına inananlar azdır.



**Həbsindən sonra onun vəkili olmuş Rəşad Mirmehdizadə deyir ki, istintaq getdiyindən hər hansı bir açıqlama vermək istəmir. Vəkil İ.Əliyevin doğulduğu kənd qəbiristanlığında dəfn olunmamasının səbəbini də açıqlayıb:** "İlqar Əliyevin Bakıdakı "Qurd qapısı" adlanan ərazidəki qəbiristanlıqda dəfn olunması ailəsinin qərarıdır".

Onun yas mərasimi Nəsimi rayonu ərazisindəki evinin həyətində təşkil olunub. Jurnalistlər yas mərasimində çox az sayda - yalnız yaxın qohumların iştirak etdiyini müşahidə ediblər.

**R.Mirmehdizadə müvəkkilinə hər hansı bir təzyiqin olmadığını da diqqətə çatdırıb:** "Sonuncu dəfə həmişə olduğu kimi görünürdü. Onu necə görmüşdümsə, elə idi. Həbsdə olmağı əlbəttə ki, ona təsir etmişdi, amma ona təsir olması haqda mənə heç nə deməmişdi"...

***

**Penitensiar Xidmətin sabiq rəisi, "Məhbuslara Yardım Fondu"nun prezidenti Məmməd Zeynalov İ.Əliyevin özünü öldürməsi ilə bağlı şübhələrin olmasını təbii hesab etdiyini açıqladı:** "İlqar Əliyev kateqoriyasında olan şəxsin təcridxanada ölümü çox nadir bir hadisədir. Orada həmişə adam olur. Ona görə də psixoloji baxımdan özünü kiminsə asması mümkün deyil. Versiya irəli sürürlər ki, onunla kamerada saxlanılan şəxs telefonla danışmağa gedib və qayıdıb gələndə İlqar Əliyevi asılmış vəziyyətdə görüb. Onun yanında adam olubsa, hər an kameraya kiminsə daxil olacağı istisna deyilsə, belə bir vəziyyətdə psixoloji durumdan özünü asmaq demək olar ki, mümkün deyil. Kənar şəxs intihar edənə maneçilik edə bilər deyə bu mümkün deyil. Qışqır-bağır salıb nəzarətçiləri çağıra bilər. 2 şəxs olan kameralarda çox nadirən belə hallar baş verir. İlqar Əliyev MTN işçisi olduğundan onu digər məhbuslarla bir kamerada saxlamaq olmaz. Ona görə o kateqoriyadan olan məhbuslarla birgə saxlanılır. Əsasən məhkum tək saxlananda belə hallar olur. Ona görə də nəzarətçilər belə şəxsləri daim nəzarətdə saxlamalıdırlar. Gözlükdən tez-tez baxmalıdırlar ki, belə hallar baş verməsin. Görünür, səhlənkarlıq ediblər, mütəmadi baxmayıblar. Düşünüblər ki, heç nə olmaz. əslində isə o kateqoriyadan olan məhbusları xüsusi nəzarətdə saxlamalıdırlar. O kateqoriyadan olan məhbuslar özlərinə çox şey edə bilərlər. Burada nəzarətçilərin rolu olmamış deyil.

Bu hadisə birbaşa nəzarətçilərin günahı üzündən baş verib. Nəzarətçi gecə yarısı olsa belə mütəmadi olaraq vəzifəsinin icrasını həyata keçirməlidir. Yatmağa ixtiyarı yoxdur".

***- İlqar Əliyevin kənar şəxsin vasitəsi ilə, köməkliyi ilə həyatla vidalaşması haqda fikirlər var. Bu fikirlər nə dərəcədə əsaslıdır?***

- Bakı İstintaq Təcridxanası Azərbaycanda müasir tələblərə cavab verən ilk saxlama yerindən biridir. Orada 24 saatlıq kamera-müşahidə sistemi var. Belə bir halda onun kamerasına kənar şəxsin daxil olması istisnadır.

***- İlqar Əliyevin boynuna ip keçirib özünü öldürməsinə inanırsız?***

- Düşdüyü vəziyyət onu həmin həddə çatdırmışdı. Səməd Vurğunun "Bu gün fərman verən sabah can verir" misraları var. Həbsinə qədər fərman vermiş adam bu gün həbsxanadadır. Həbsxana elə-belə yer deyil. Hamının psixoloji durumu imkan vermir ki, dözsün. İlqar Əliyevin əməlləri haqda məlumatlardan belə qənaətə gəlinir ki, o, psixoloji cəhətdən təsir etməkdə usta olub, amma özünün psixoloji durumu, dözüm limiti çox az olub. Ona görə də boynuna ip keçirib. İlqar Əliyev perspektivini qoyub qarşısına, görüb ki, ittihamlar üzrə azı 15 il həbsə məhkum ediləcək. Hesab edib ki, cəzanı çəkməkdənsə, ölmək yaxşıdır.

### İlqar Əliyev, Akif Çovdarov o qədər qanunsuz hərəkətlər ediblər ki...

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış isə dedi:** "İlqar Əliyev, Akif Çovdarov o qədər qanunsuz hərəkətlər ediblər ki, insanlarda elə fikir formalaşıb ki, bütün cinayətləri yalnız onlar ediblər. Əslində isə elə deyil. O cinayətlər MTN-dəki mütəşəkkil cinayətkar dəstə tərəfindən törədilib. Ola bilər ki, həmin cinayətlərdə ən yaramaz həlqələrdən biri İlqar Əliyev olub. O, çox qəddar, yaramaz hərəkətləri ilə seçilən olub. Onun haqqında bu sözlər deyilməlidir ki, tarixə düşsün. Onun aqibətindən bu gün onun kimi qanunsuzluqlar, qəddarlıqlar, yaramazlıqlar edənlər nəticə çıxarmalıdırlar. Düşünürəm ki, "MTN işi" elə bir işdir ki, ona Cinayət Prosessual Məcəllənin tələblərinə görə hamıya bəlli olan faktları sübut etmirlər. Hamı bilirdi ki, onlar belə cinayətkar fəaliyyətlə məşğuldurlar. Düşünmürəm ki, onun ölümü istintaqın gedişinə hər hansı bir ciddi təsir göstərəcək. "MTN işi" üzrə tutulanların cinayət məsuliyyətinə cəlb edilməsi, məhkəməyə verilməsi üçün kifayət qədər sübutlar mövcuddur".

***- Konkret olaraq İlqar Əliyevin yoxluğu istintaqın gedişatına təsir edəcəkmi?***

- İş üzrə zərərçəkənlər bu gün lazım olan ittihamedici ifadələri verirlər. Onların ifadələri digər sübutlarla da təsdiq olunur. Məsələn, zərərçəkən deyir ki, məni Akif Çovdarovun xüsusi həbsxanasına aparmışdılar. Onun bu ifadəsini yoxlamaq üçün oradakı ümumi vəziyyət, qanunsuz saxlama yerində neçə stol-stulun və ya digər əşyaların olması barədə də konkret suallara cavab verir. Ora yerli baxış keçirilir və faktlarla təsdiq olunur ki, həmin adam orada olub-olmayıb. Tam məsuliyyətlə deyirəm, Azərbaycan kimi ölkələrdə, əgər cinayət baş veribsə, bu və ya digər şəxsə qarşı xüsusən zorakılıq olubsa, fakt üzrə sübutlar toplamaq çox asandır. Sadəcə olaraq, hüquq-mühafizə orqanlarının iradəsi olmalıdır. İradə varsa, sübutlar toplanır və ittihama əsas verən kifayət qədər sanballı sübutlara çevrilir. Bu işdə hər hansı bir siyasi müdaxilə olmasa, bu işin istintaqı müəyən vəzifəli şəxslərə tikilməsi göstərişi verilməsə, işdə günahı olan bütün vəzifəli şəxslərin istintaqa cəlb olunaraq məhkəmə qarşısına çıxarılması üçün çox ciddi əsaslar mövcuddur.

***- İlqar Əliyevin ölümü onun əməllərindən zərərçəkmiş şəxslərə təsir edəcək?***

- Əgər sübut olunsa ki, İlqar Əliyev konkret şəxsə qarşı qanunsuz əməlləri özbaşına, təkbaşına qərar verməklə edib, bu halda onun yaxın qohumları istintaqın ona aid hissədə sona qədər davam etdirilməsi üçün istintaqa ərizə ilə müraciət edə və ittihamların əsassız olduğunu sübut olunaraq bəraət verilməsini tələb edə bilərlər. Əgər belə bir ərizə olmasa, bu halda cinayət işinin icraatına xitam veriləcək.

Qeyd edək ki, İ.Əliyev Cinayət Məcəlləsinin 302.2; 308.2 və 309.1-ci maddələri ilə təqsirləndirilərək barəsində həbs-qətimkan tədbiri seçilmişdi.

Onun ölümü ilə bağlı Baş Prokurorluğun yaydığı rəsmi məlumata görə, İ.Əliyev dekabrın 20-də 15:55 radələrində BİT-in 2 nəfərlik kamerasında intihar edib. Kamera yoldaşı telefon danışığı hüququndan istifadə etmək üçün kameranı tərk etdiyi qısa müddət ərzində orada tək qalmış İ.Əliyev mələfəni ip formasına salaraq pəncərədəki dəmir barmaqlığa bağlayaraq özünü asıb.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 285 (6313) 22 dekabr 2015

# Müxalifət devalvasiyaya görə etiraz aksiyaları keçirmək istəmir

**Azərbaycan manatının birdən-birə 50 faiz ucuzlaşdırılması ictimaiyyətdə gərginlik yaradıb. İnsanların arasında narazılıq özünü göstərməyə başlayıb. Belə bir vəziyyətdə ölkə müxalifətinin necə davranacağı, yaranmış situasiyadan istifadə edib hansısa etiraz aksiyaları təşkil edib-etməyəcəyi maraq doğurur. Bu barədə söhbət etdiyimiz ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, manatın 10 ay ərzində 85 faiz ucuzlaşması ölkədə dəhşətli böhranın başlanğıcıdır:**

## "Fərqindəyik ki, xalqı indiki halda küçəyə çıxarmaq böyük fəlakətlərə gətirib çıxara bilər"


Sərdar Cəlaloğlu


İqbal Ağazadə


Əli Əliyev

"Azərbaycan manatı bundan sonra da hər ay öləcək və 500 faizə qədər ucuzlaşacaq. Çünki bizim manatın arxasında duran yeganə maddi faktor neft idi. Neftin dünya bazarında qiyməti aşağı düşüb və ölkədə hasilatı da azalıb. Bu iki faktor Azərbaycan manatını kağız səviyyəsinə gətirib çıxarıb. Hökumət siyasətində heç bir dəyişiklik eləmək imkanına malik deyil, Avropa və ABŞ-la münasibətlər pozulduğuna görə maliyyə dəstəyi ala, kreditlər götürə bilməyəcək. Beləliklə, faktiki olaraq Azərbaycan hökuməti Yunanıstan kimi deffolt vəziyyətinə düşəcək. Bir azdan baxarsınız, hökumət məcbur olacaq ki, deffolt elan eləsin. Belə bir vəziyyətdə isə ölkədə sosial partlayış qaçılmazdır. Biz nə qədər iqtidara əl uzadırıq, çünki vəziyyət bizi də narahat edir, yaranmış vəziyyətdən çıxış yolları təklif edirik, iqtidar siyasətində dəyişiklik eləmir, yanlış yolda getməkdədirlər. Düşünmürəm ki, kimsə onları bu yoldan saxlaya bilsin. Müxalifət fərqindədir ki, xalqı indiki halda küçəyə çıxarmaq böyük fəlakətlərə gətirib çıxara bilər. Ona görə də biz iqtidara yenə də müraciət edirik ki, yaranmış vəziyyət iqtidarla müxalifətin siyasi dialoqunu tələb edir. Bilmək lazımdır ki, hələ bu "jurnalıdır", çox ciddi vəziyyət qarşıdakı ildə yaşanacaq. 2016-cı ildə Azərbaycan 1990-cı il vəziyyətinə düşəcək. Odur ki, biz təklif edirik ki, iqtidarla müxalifət bir masa arxasında oturub çıxış yollarını birgə aramalıdır. Yaranmış vəziyyətin fəsadlarının heç olmasa yüngülləşdirilməsi üçün bu vacibdir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, devalvasiya olacağı əvvəlcədən bəlli idi və devalvasiyanın ağır nəticələri ilə üzləşməmək üçün hökumətin atmalı olduğu addımlar var:** "Bununla bağlı mən "Yeni Müsavat" qəzetinə 18 dekabrda demişdim. Bilinirdi ki, ilin sonunda Mərkəzi Bankın rəhbəri gələn il manatın kursu ilə bağlı mövqe ifadə etməlidir, manatla bağlı hesabat verməlidir, buna qədər isə üzən məzənnə siyasətinə keçməli idilər. Bunun sadə səbəbləri var. Uzun illərdir deyirik ki, ölkə təksektorlu inkişaf kursunu qurmuşdu, neft üzərində qurulan siyasət, ölkə iqtisadiyyatının 95 faizini karbohidrogen məhsulları təşkil edirdi. Ölkəyə valyutanın daxil olmasının 90 faizlik yükü neftin üzərində idi. Neftin qiymətinin dünya bazarında aşağı düşməsi Azərbaycan manatının da dözümlülüyünü sarsıtmalı idi. Bu səviyyədə devalvasiya əhalinin vəziyyətinə ciddi təsir edəcək, qiymətlər bahalaşacaq. Üzən valyuta məzənnəsi siyasətinə keçilməsi növbəti mərhələlərdə güclü devalvasiya siyasətini ortaya qoymayacaq. Amma aylıq inflyasiyanın həddi elə səviyyədə olacaq ki, işləyən adamların qazancının ümumi faizi inflyasiyanın faizindən aşağı olacaq. Nəticədə heç kim qazanmayacaq və iş sektoru bütövlükdə dayanacaq. Ölkədə işsizlik böhranı yaşanacaq. Belə bir şəraitdə Azərbaycan müxalifəti nə etməlidir? Bu gün də iqtidara müraciət edirik ki, ölkədəki və regiondakı durumun bu qədər kritik olduğu vaxtda masa arxasında əyləşməyin zamanıdır".

**İ.Ağazadə dedi ki, çıxış yolları birgə aranmalıdır, tapılmalıdır, ölkəni fəlakətə sürükləyən istər iqtisadi, istərsə də regionda baş verən siyasətin qarşısının alınmasının birgə yolları tapılmalıdır:** "Hər kəs əlini daşın altına qoymalıdır, hər kəs ölkənin bu vəziyyətdən qurtarması üçün həm praktiki işdə, həm də təbliğat işində birgə iştirak etməlidir. Azərbaycan iqtidarı müxalifətin, fərqli düşünən insanların üzünə qapıları açmalıdır, ölkədə yeni mühit yaradılmalıdır. Gözləmək lazım deyil ki, ac və yoxsul qalan əhali nə vaxt etiraza qalxacaq, bir xaos başlayacaq. Bundan isə ölkə udmayacaq, heç iqtidar və müxalifət də udmayacaq. Nə olacağını proqnozlaşdırmaq çox çətindir. İşi olmayan, ac qalan əhali haqqında proqnoz vermək çox çətindir. Allah eləməsin ki, o vəziyyət yaransın. Amma o da istisna deyil. Bu, hər kəsi narahat etməlidir".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev bildirdi ki, müxalifət vəziyyətə adekvat olmalıdır:** "Fikrimcə, rus təyyarəsi vurulduqdan, iqtidarın kürəsəl çapda himayədarı olan Rusiya və Türkiyənin yolları diametral şaxələndikdən sonra ölkədə tamamilə yeni mərhələ başlayıb. Diqqət yetirin, məhz Türkiyə Rusiyanın arxasından çəkilib Qərbə yaxınlaşdıqdan, İsraillə diplomatik müstəvidə münasibətləri bərpa etməsi fonunda, ABŞ və Avropa strukturları diplomatik tərzdə hərəkətlənərək, iqtidarı sarsıdacaq addımlar atmağa başlayıblar. Ucuz neft və diversifikasiya edilməmiş iqtisadiyyata malik Azərbaycanı bütövlükdə gərgin sosial şərait gözləyir. Nə etmək olar? İqtidar təkamül xəttini deyil, inadkar əzici xətti davam etdirir. Ona görə də yaranmış şəraiti dəyərləndirməmək, vəziyyətə uyğun təşkilatlanmamaq artıq müxalifətin səhvi olacaq. İnanmaq istəyirəm ki, cəmiyyət belə sosial durumda vahid müxalifətin çağırışlarına qarşılıq verəcək".

❑ **E.SEYİDAĞA**

# Hüquq müdafiəçilərindən sərt bəyanatlar

## "Qandallanan general və polkovniklərin siyasi məhbus elan olunmasından söhbət gedə bilməz"


Novella Cəfəroğlu


Səidə Qocamanlı


Səadət Bənəniyarlı

**Eldar Mahmudovun milli təhlükəsizlik naziri vəzifəsindən çıxarılmasından sonra sözügedən qurumun general və polkovnikləri həbs edildi. Eyni zamanda həbslər dalğası Rabitə və Yüksək Texnologiyalar Nazirliyində, Vergilər Nazirliyində də həyata keçirildi.**

Cahangir Hacıyevin timsalında bank sistemində qandallama prosesi getdi. Prosesin bitmədiyi və davam edəcəyi haqda məlumatlar gəlməkdədir.

Xatırladaq ki, 10 il öncə də ölkədə yüksək vəzifəli məmurların həbsi ilə müşayiət olunan hadisələr baş vermişdi. Əli İnsanov, Fərhad Əliyev nazir vəzifələrinin başında ola-ola həbs edilmişdilər. Onların ardınca çoxlu sayda məmur vəzifəsini və azadlığını itirməli olmuşdu. Zamanın gedişi ilə həmin adamlar hüquq müdafiəçiləri tərəfindən müdafiə olundu və adları siyasi məhbus siyahısına belə daxil edildi. Bəs son iki ayda qandallanan general və polkovniklərin, digər yüksək çinlilərin hüquq müdafiəçiləri tərəfindən müdafiəsi gözləniləndirmi?

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu bildirdi ki, MTN işi ilə bağlı həbs edilmiş general və polkovniklərin, yüksək vəzifəli şəxslərin müdafiə olunmasından söhbət gedə bilməz:** "Bunlar Azərbaycanın sahibkarlarını soyublar, Azərbaycanın milyardlarla manat pulunu mənimsəyiblər, nəticədə banklarımız ağır duruma düşüb. Ölkədə manatın devalvasiyası və millətin bu günə düşməsi elə onların ölkənin pulunu talan etməsindən qaynaqlanıb. Biz belə adamları siyasi məhbus adlandıra bilmərik, onlar siyasi məhbus kriteriyasına qətiyyət uyğun deyillər. Biz qanun çərçivəsində hərəkət edirik. Əgər məhkəmə istintaqının gedişində onların hüquqları pozulsa onların pozulan hüquqlarının bərpa olunmasına nail olmaq istiqamətində addımlar atacağıq. Amma onları siyasi məhbus kimi heç vaxt qəbul etməyəcəyik və müdafiə eləməyəcəyik".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı isə bildirdi ki, hələ həmin şəxslərin ilkin istintaqı gedir:** "Hüquq müdafiəçiləri nə zaman, hansı hüququnu müdafiə edə bilər? Onların saxlanma hüququnda, ailəsindən sovqat alma hüququnda hansısa problemlər olarsa və bu barədə bizə müraciət edilsə, o zaman biz müdaxilə edə bilərik. Yalnız saxlanma şəraiti ilə bağlı hüquqları pozularsa. Ancaq o adamların siyasi məhbus siyahısına daxil edilməsi birmənalı olaraq mümkün deyil. Qətiyyən ola bilməz. Hətta kimlərsə onları siyasi məhbus kimi sırımağa cəhd etsə, biz buna qarşı çıxacağıq. Azərbaycanda qəribə və heç də yaxşı olmayan bir tendensiya müşahidə olunur. Kim tutulursa biriləri çalışır ki, onun adını siyasi məhbus siyahısına sırısın və bununla da Azərbaycana qarşı hücumlar üçün əsas yaratsınlar. Siyasi məhbus kriteriyasına zərrə qədər uyğun gəlməyən adamları siyasi məhbus adlandırmaq, yumşaq desək, yanlışdır".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı bildirdi ki, son vaxtlar həbs edilən general və polkovniklərin, eyni zamanda yüksək vəzifəli şəxslərin həbsi siyasi motivlərlə deyil, həmçinin həmin şəxslərin hüquqlarının pozulması baş verməyib. Ona görə bu gün üçün həmin adamların hüquqlarının müdafiə edilməsindən söhbət gedə bilməz:** "Məhkəmə istintaqının gedişində o adamların hüquqlarının pozulduğu barədə vəkillərindən və ya özlərindən hansısa açıqlamalar olsa, biz araşdırma apara bilərik. Əgər onların hüquqlarının pozulduğu təsdiqini tapsa, hüquq müdafiəçisi olaraq onları müdafiə etməyimiz mümkündür. İndiki halda isə mümkün deyil. Həbs edilən general və digər yüksək rütbəlilərin bugünkü vəziyyətdə siyasi məhbus adlandırılması da qeyri-mümkündür. Onlar siyasi məhbus deyillər. O adamlar vəzifələrindən sui-istifadə edərək vətəndaşlara, sahibkarlara qarşı cinayət hərəkətlərinə yol veriblər. Belə olduğu halda onları siyasi məhbus hesab etmək olmaz. Bizə onlardan şikayət daxil olarsa, məhkəmənin gedişini izləyə bilərik".

❑ **Etibar SEYİDAĞA**



# Avropanın astanasında...

Hüseynbala SƏLİMOV

**Bəli, bir müddət çox şey qeyri-müəyyən qaldı. Hətta suallar yarandı ki, Gürcüstanın və Ukraynanın Avropa Birliyi ilə assosiasiya sazişi imzalamasının bir mənası vardımı?..**

Xüsusən də Ukraynanın başına gələn məlum hadisələrdən sonra bu fikirlər daha da gücləndi. Düşündük ki, belə riskə dəyməzdi...

Amma budur, assosiasiya sazişinin ilk müjdələri gəlməyə başladı - Avropa Birliyi Gürcüstan və Ukrayna ilə vizasız rejim tətbiq etməyi qərara aldı... Düzdür, bunun tam gerçəkləşməsi üçün bir neçə ay da gözləmək lazım gələcək ki, Avropa ölkələri bu qərarı öz parlamentlərində ratifikasiya etsinlər.

Amma əsas qərar artıq qəbul edilib...

Məsəl var, deyirlər ki, bir yandan bağlanmasa, o biri yandan açılmaz. Gürcüstan Rusiya ilə vizasız rejimdən məhrum olmuşdu. İndi əvəzində bütün Avropa ilə vizasız rejim qazandı...

Eyni sözləri Ukrayna haqqında da demək mümkündür. Bu ölkə də çox iztirablar yaşadı və bu gün də yaşamaqdadır. Bəlkə də vizasız rejim Ukraynanı sakitləşdirmək üçün çox azdır. Onun iztirabları daha böyük kompensasiya tələb edirdi. Amma nə etmək olar? Siyasət soyuq başları sevir, xüsusən də soyuq qış aylarında...

Ukraynanı bilmirik, Tiflisdə əməlli-başlı qeyd etdilər bu hadisəni. Doğrusu, buna dəyərdi də...

Bizimkilərdə də dərhal sual yarandı ki, bəs biz necə olacağıq? Hər şey sadədi. Biz Avropa Birliyi ilə sadələşdirilmiş viza rejimi ilə bağlı saziş imzalamışdıq və buna da qane olmalıyıq - eyni bir işə, eyni bir xidmətə görə başqalarından qat-qat artıq, hətta bir neçə dəfə artıq pul xərcləmək də bizim qismətimizdi...

Necə deyər, qismətdən artıq yemək olmaz. Biz qat-qat artıq qiymətə uçmalıyıq, qat-qat artıq qiymətə dincəlməliyik və qat-qat artıq qiymətə nəsə almalıyıq!..

Gürcüstanla Ukrayna risk etdilər. Buna görə də qeyd etdiyimiz kimi, məhrumiyyətlər yaşadılar. Bəlkə də biz düz etdik. Ona görə ki, Rusiyanın bizi haralara sürükləyəcəyini, bizim üçün hansı ssenariləri hazırladığını indi yalnız təxmin etmək olar...

Bilirsiniz əsas nədir? Odur ki, sən Avropa Birliyinə qatılmamışdan öncə özün üçün öz ölkəndə bir Avropa yaradasan - siyasi və iqtisadi islahatlar aparasan, insanların hüquq və azadlıqlarını təmin edəsən, düzgün və ədalətli seçkilər keçirəsən... Bütün bunları Avropa Birliyinə üzv olmadan da etmək olardı. Gəl, bunları etmirik. Bəlkə də əksini edirik. Adamı üzən də elə budur...

Əvəzində də isə hamıdan böyük fədakarlıq və əzmkarlıq gözləyirik. Sanki dünya ölkələri dönüb Santa Klaus olub bizim üçün - əlimizi əlimizin üstünə qoymamalıyıq və yalnız özümüzü düşünməliyik, dünya ölkələri isə hədiyyələr paylamalıdır...

Son vaxtlar daxili siyasətdən az yazırıq. Ona görə ki, bu sferada heç nə yoxdur, elə bil tam səhralıqda yaşayırıq. Hətta səhrada da həyat bundan daha canlıdır. Bizim siyasi həyatımız isə çox, olduqca bəsitdir, amma iki üstə gəl iki heç vaxt dörd etmir, bir az əskik, yaxud da artıq olur...

Ona görə diqqəti bir az kənarlara yönəltmək və kənar proseslərin konteksində bizim ölkə siyasətinə də toxunmaq qalır...

Qayıdaq Gürcüstana və Ukraynaya. İndi bu ölkələrdə necə bir ruh yüksəkliyinin yaşanmasını fərqindəyik və əvvəldə bunu qeyd etdik. Amma gəl, çətinliklər də çoxdur. Başqa cür də olmur. Məsəl, var deyirlər, könlü balıq istəyən qışda gölə baş vurar...

Bir daha deyirik ki, ölkəmizin assosiasiya sazişi imzalamamasını böyük faciə hesab etmirik. Bir daha deyirik ki, ola bilsin, Rusiya buralarda da nəsə edəcəkdi...

Amma adam Avropaya vizasız getmək şansını da itirmək istəmir və düşünürsən ki, eybi yoxdur, növbəti mərhələlərdə buna da can atmaq olar...

Bəli, Avropanın astanasındaydıq. Amma qapını döyməyə qorxduq. Olsun. Bir daha deyirik ki, risk etməyə dəyməzdi. Sadəcə, bizi bir məsələ maraqlandırır: risklər necə formalaşır?..

Ürək ağrıdan budur ki, hər şeydən öndə hakimiyyətin maraqlarıdı. Hər şey buna xidmət edir. Düzünə qalsa, Azərbaycanın ABŞ-la, Avropa ilə problemi yoxdur, bizim hakimiyyətin onlarla problemi var. Amma hər şey hiperbolizə olunmuş şəkildə qələmə verilir - milli maraqlar deyəndə elə hakimiyyətin maraqları nəzərdə tutulur...

Olsun... Nə etmək olar? Əvvəldə dedik ki, siyasət soyuq başları sevir. Hətta qlobal istiləşmə proqnozlaşdırılan planetdə belə...

**Müdafiə Nazirliyi mətbuat xidmətinin sabiq rəisi, Yeni Azərbaycan Partiyasının (YAP) keçmiş funksioneri Eldar Sabiroğlunun oğlu Rüfət Səfərovun iqtidardan müxalifətə keçməsini bəyan etməsi, eləcə də prokurorluqdakı vəzifəsindən istefa verməsi ciddi qalmaqala səbəb olub. O, yaydığı bəyanatla prokurorluq orqanındakı vəzifəsindən könüllü istefa verdiyini, bu addımını hazırkı rejimə etiraz əlaməti kimi atdığını bildirib.**



# "O, mənə telefonda dedi ki, sən prokurorluq orqanına ləkəsən"

## Rüfət Səfərov: "Yəqin ki, burda da üzəduranlar tapılacaq..."

*Zərdab Rayon Prokurorluğunun müstəntiqi Rüfət Səfərovun bəyanatı ciddi hadisələrlə müşayiət oluna bilər. Artıq atası ona etirazını bildirib.*

*R.Səfərov musavat.com-a müsahibəsində bu istefası ilə bağlı danışdı. Müsahibimiz öncə son durum barədə məlumat verdi.*



- Ərizəmi saat 12 radələrində təqdim etdim. Poçt vasitəsilə. Təbii ki, gözləyirəm ki, barəmdə hər hansı qərar olsun, iş yerimi sonra tərk edim. Özbaşına surətdə buranı tərk edə bilmərəm. Zərdab rayon prokuroru zəng vurub və narazılığını bildirib. 3-4 dəfə zəng vuraraq deyib ki, Baş Prokurorluqdan tələsdirirlər və ərizəni soruşurlar. Mən də hazırda xəstəyəm, yüksək hərarətim var... O, mənə telefonda dedi ki, sən prokurorluq orqanına ləkəsən. Desin, düz deyir...

**- Ailənizin yaşadığı evin qarşısında yenə polislər varmı?**

- Artıq yoxdur.

**- Ata-ananız zəng edibmi yaxın vaxtlarda sizə?**

- Xeyr, zəng etməyiblər. Mən qeyd etmişəm, nəslimdə, şəcərəmdə məni tanıyanlar-tanımayanlardan zəng gözləmirəm.

**- Niyə birdən-birə bu müraciətə ehtiyac gördünüz?**

- Mən buna elə yanaşmazdım ki, birdən-birə olub. Bu, bir neçə ilin prosesidir. Yekunda belə qərar verilib. Ani qərar verməmişdim, həsablamışam, şüurlu olaraq. Bir neçə ildir ki, prokurorluq orqanlarında fəaliyyət göstərirdim. İndi düşündüm ki, zaman gəlib bu günə düşüb.

**- Son bir neçə ayda istər özünüzlə, istər atanızla bağlı hansı sahədə problemlər baş verib ki, belə bir qəfil müraciətə ehtiyac gördüz? Pərdəarxasında nələr baş verib?**

- Mən açıq söyləyim ki, mənim bu addımımı şərtləndirən iki mühüm amil var. Başlıca amil odur ki, ölkədə kəskin surətdə hüquq və azadlıqlar tapdanır. Bu, başlıcadır. İkinci və köməkçi faktor isə atama qarşı haqsız hücumlardır. Atamın, ailəmizin təhqir olunması və sairdir.

**- Bu bəyanatdan sonra atanızla çox kəskin telefon danışığınız olub. Nələr danışdız? Sizi nələrdə ittiham etdi?**

- Onun o sözlərini mən təkrar etmək istəmirəm. Təhqiramiz sözlər idi. Ləyaqətsiz təhqirlər idi.

**- Sizi övladlıqdan rədd edəcəkmi?**

- Bunu özündən soruşun. Ona da hazıram. Əgər bu addımı atarsa, normal baxıram. Bu cəmiyyətdə baş verən hər şeyə normal baxıram.

**- Bəs özünüz onlardan imtina edə bilərsizmi?**

- Əsla. Mən o qədər şərəfsiz insan deyiləm.

**- Atanızın sizə yazdığı müraciətdən də aydın olur ki, imtahan verib, Zərdaba getmisiz. Burda atanızın dəstəyi olmayıbmı?**

- Hər halda, atamın dəstəyi olsaydı, mən bu dəqiqə Zərdabda olmazdım. Doğrudur, mən Zərdabı sevirəm, zərdablılar qarşısında baş əyib, ehtiram edirəm. Fürsətdən istifadə edib, baş prokurora da minnətdarlığımı bildirirəm ki, zamanında bu fürsəti bizə tanıdı. Biz də öz bacarıqlarımız sayəsində dövlətə xidmət etdik.

**- Bakıya keçmək üçün müraciət etmisizmi?**

- Mən etməmişəm, atam müraciət edib. Mənsə atama demişəm ki, ata, bu texniki məsələyə görə özünü yorub kimsə də minnətçi düşmə. Mən şəxsi, marjinal maraqlarımla bu addımı atmamışam. Zərdablılara da öyrəşmişdim, burda da atmosfer olaraq rahat idim. Məni Bakıya dəvət etmədilər, ay filan şeyi etmədilər... deyə bir problemim olmayıb. Bunlar boş söhbətlərdir. Buna görə də hər hansı addım atmamışam.



**- Bir sabah oyandız və qərar verdiz ki, ürək sözlərinizi söyləyib, bu sistemdən getməlisiz...**

- Eynilə. Tamamilə düz deyirsiz.

**- Təkanverici heç nə olmayıb son dönəmdə?**

- Xeyr, təkanverici, xüsusi heç nə olmayıb. Amma uzun müddətin fikirlər burulğanı məni gətirdi bu qərara.

### Alovlu YAP-çının oğlu prokurorluq orqanlarından xaric edildi

**- Sizin barənizdə çox az bilgimiz var. Harda oxumusuz, orta, ali təhsilinizi harda almısız?**

- Mən Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişəm. Magistraturanı da orda bitirmişəm. Orta təhsilimi isə Bakıda 135 və 248 saylı orta məktəblərdə almışam.

**- Hansısa dini qrupun üzvü olmanız barədə də versiyalar səslənir...**

- Xeyr. Mənim heç bir dini qruplaşmaya aidiyyətim yoxdur. Sırf öz işimlə məşğulam, bundan sonra da öz işimlə məşğul olacam.

**- Hansısa müxalifət partiyasına keçəcəksiz?**

- Xeyr, elə bir fikrim yoxdur. Niyə mən mütləq hansısa partiyada olmalıyam?

**- Rüfət bəy, müsahibənizdə "əgər Eldar Sabiroğlu məndən imtina edərsə, təxminən 3-4 gün ərzində əgər atam ölərsə, atamın başdaşına bu rejimin anatomiyasını birbaşa hopduracam", fikrini işlətmisiz. Sizə elə gəlmirmi ki, bu, əndazəni aşan, normaldan uzaq, emosionallıq dolu bir yanaşmadır?**

- Sizinlə söhbət edirəm. Doğrudur, bir qədər səhhətim də qaydasında deyil. Amma siz mənim danışığımda hər hansı çılğınlıq hiss etdiniz?

**- Hal-hazırda yox. Amma mən daha öncə dediklərinizi nəzərdə tuturam.**

- Kimin nə deməsinin mənimçün əhəmiyyəti yoxdur. Əsas odur ki, mən özüm nə düşünürəm.

**- Ölkədən getmək, mühacirət etmək... belə planlarınız varmı?**

- O barədə düşünməmişəm. Amma hesab etmirəm ki, belə bir əsas var. Mən bu ölkənin azad vətəndaşıyam. Hər hansı cinayət törətməmişəm. Nəyə görə daşqalaq olunmalıyam?

**- Azərbaycanda bu cür etiraz edən eks məmurların, YAP fəallarının aqibəti bilinən xətt üzrə gedir. Həbs, hansısa formada cəzalandırma... bunlar istisna deyil, hər halda...**

- Gözləyirəm indi. Baş Prokurorluq yoxlamanı göndərib artıq. Yəqin ki, burda da üzəduranlar taparlar. Gözləyirəm. Məhz bu qərardan sonra eşitdiyimə görə yoldadırlar, gəlirlər. (gülür)

**- Həyatınızın bundan sonrakı mərhələsini necə təsəvvür edirsiz? Necə yaşayacaqsız? Nələr olacaq bundan sonra?**

- Bütün mahiyyətimi və varlığımı kitaba və elmə qoyacam. Ondan sonra nə olacağını isə həyat göstərəcək.

**Günün sonunda isə R.Səfərovla bağlı gözlənilən hadisə baş verdi. Zərdab Rayon Prokurorluğunun müstəntiqi Rüfət Səfərov "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 34-cü və "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi"nin 30 və 31-ci maddələrinin tələblərini kobud surətdə pozaraq prokurorluq orqanlarında prokuror və ya müstəntiq vəzifəsi ilə bir araya sığmayan hərəkətlərə yol verdiyinə görə prokurorluq orqanlarından xaric olundu. Bu barədə Respublika Prokurorluğunun rəsmi saytında məlumat yer aldı.**

**Həmin məlumata görə, icra və əmək intizamının, eləcə də prokurorluq əməkdaşlarına qarşı tələbkarlığın vəziyyətinin aşağı səviyyədə olması ilə əlaqədar hazırda Baş Prokurorluğun müvafiq komissiyası tərəfindən Zərdab Rayon Prokurorluğunun fəaliyyəti kompleks şəkildə yoxlanılır.**

**Qeyd edək ki, R. Səfərov Müdafiə Nazirliyinin mətbuat xidmətinin keçmiş rəisi Eldar Sabiroğlunun oğludur. Rəsmi məlumatdan öncə, qeyri-iş günü olmasına baxmayaraq, Rüfət Səfərov qəfil bəyanat verərək, vəzifəsindən istefa verdiyini, mövcud hakimiyyətə qarşı müxalifətə keçdiyini bəyan etmişdi. Onun bu addımı siyasətçi atası Eldar Sabiroğlunu qəzəbləndirmişdi.**

**E.Sabiroğlu YAP-ın qurucularından olub, sabiq müdafiə naziri Səfər Əbiyevə yaxın şəxsdir.**

❑ Sevinc TELMANQIZI



# Manatın qurbanları

Zamin HACI
zaminhaci@gmail.com

**Dünənki yazımda oxucumuz Həsən Şirvanlının məktubu yarımçıq qalmışdı, öncə onun ardını oxuyaq: "Keçən il Yekaterinburqdan toxumluq kartof gətirirdik. İlahi, Azərbaycanda başımıza nə oyun gəldi! Yalama stansiyasında vaqonumuzu buraxmadılar, dedilər "monopolist"in haqqını verməlisiniz. 3000 min manat rüşvət aldılar. Dedilər verməsəniz kartofunuz vaqonda çürüyəcək. Bütün sənədlər qaydasında idi, ancaq dedilər gömrüyün öz laboratoriyası var, "monopolist"in haqqını verməsəniz kartofunuzu zəhərli çıxardarıq. Rüşvət verməyimizə baxmayaraq bizi bir neçə gün də Biləsuvar və Şirvan şəhərləri arasında get-gələ saldılar.**

Vergilər bütün günü bizdən pul yığır, haram xoşları olsun. Obyektimə qaz çəkdirmək istəyirdim, "Azəriqaz" dedi 15 min manat rüşvət ver, 5 min manata da sayğac al. Dedim, mən heç bu obyektə 20 min manat pul qoymamışam! 6 ay Bakıya gedib-gələndən sonra axır o zəhrimar texniki şərti aldım. Görəsən, Alyaskada yaşayan sahibkar qaza texniki şərt almaq üçün Vaşinqtona 6 ay gedib-gəlirmi?" *(Ardı gələn nömrədə).*

Həsən bəyin Vaşinqtonun adını çəkməsi yerinə düşdü. Dünən manatın ölməsi prosesini bütün zəhmətkeşlərimiz kimi ürək ağrısı ilə izlədik, ancaq əlimizdən nə gələcək? Əkdiyimizi biçirik. 20 ildən çoxdur ölkənin sükanını verdiyimiz yapistlərdən xeyir gözləməyə dəyməzdi. Sadəcə, neftin qiyməti baha olanda manatı süni nəfəs aparatına qoşmuşdular - hər il Mərkəzi Bank milyardlarla dolları daxili bazara atırdı, millətdə elə təəssürat yaradırdı ki, guya maliyyə sabitliyi vardır. Elə deputatlardan biri də manatın devalvasiyası haqda deyir ki, Azərbaycan hakimiyyətinin günahı yoxdur, hamısını eləyən Rusiya və ABŞ-dır. İnsan o qədər yaltaqlanıb, artıq sabun köpükləri gözünü örtüb. Sən iqtisadiyyatını idarə edə bilmirsənsə, xalqın sərvətlərini oğurlayırsansa, iş yeri, istehsal, bazar iqtisadiyyatı, qiymətli kağızlar bazarı əvəzinə camaata üç barmağın məşhur konfiqurasiyasını göstərirsənsə, axırı necə olmalı idi? Amerikanın günahıdırsa, bəs dünyada analoqu olmayan, müstəqil siyasətiniz harda qaldı? Bəs heç kimdən asılı deyildiniz? Dünya böhranları sizə təsir göstərmirdi?

Mərkəzi Bankın manatın kursunun başını buraxmağı "üzən məzənnə" adlandırması da başqa lətifədir. Üstəlik, həyasızcasına yalan deyirlər. Guya dünyada "xarici iqtisadi şoklar" güclənibmiş. Sizin kimi neft iynəsinə oturan beş-altı dövlətdən başqa (Rusiya, Venesuela kimi) heç kim şok-zad keçirmir. İbrahim müəllimin gopuna inanmayın, Almaniya da sağ-salamat yerində durur.

O qədər yalan danışırlar, dünən dedikləri yadlarından çıxır. "Manat stabildir, xaricilər, pulunuzu gətirin manata çevirin, qabağa düşün" söhbəti yadınıza gəlirmi? Bir il keçməyib üstündən.

Örnək üçün, bu ilin yayında deyirdilər Azərbaycanda qeyri-neft sektoru son 11 ildə görünməmiş inkişaf edib və ümumi iqtisadiyyatda 70 faizə çatıb. İndi isə MB devalvasiya bəyanatında deyir: "Ölkənin valyuta bazarına və manatın məzənnəsinə ciddi təzyiqlərin yaranmasını nəzərə alaraq cari ilin fevral ayında manatın devalvasiyası həyata keçirilib, iqtisadiyyat, valyuta bazarı və manatın məzənnəsi neftin 50-55 dollar qiymətinə adaptasiya olunub.

Lakin cari ilin iyul ayının sonlarından etibarən neftin qiymətinin sürətlə aşağı düşməsi valyuta bazarına və məzənnəyə təzyiqi yenidən əhəmiyyətli artırıb. Yaranmış şərait valyuta bazarının və manatın məzənnəsinin yeni neft qiymətlərinə uyğunlaşmasını zəruri edib".

Harda görünüb ki, 30 faizlik hissə qalan 70 faizə "yaşamağı başa salsın"? Deməli, qeyri-neft sektorunun 70 faizə çıxması yalandır. Ət budursa, pişik hanı, pişik budursa, ət hanı? Ancaq sözümü geri alıram, azlığın çoxluğa qayda-qanun, prinsip diqtə eləməsi təbiətdə mümkündür. Misal üçün, xərçəng xəstəliyində kiçik xəstə hüceyrələrdən başlayan metastaz bütün orqanizmi məhv edə bilir. İndi biz neft gəlirlərinin metastaz dövrünü yaşayırıq. Təəssüf ki, heç bir kimya-terapiya, cərrahiyyə üsulu kömək eləmir.

Yazdakı devalvasiya Beynəlxalq Bankın, "Azəriqazbank"ın, bir neçə nazirliyin başını yedi. O vaxt manatın öləcəyini bilən lotular xeyli pulu xarici valyutaya çevirib qaçırmışdılar. Görəsən, bu devalvasiyadan qabaq xaricə nə qədər valyuta daşındı? İndi mələfədən kimi asacaqlar?

# Vətəndaşımız üzüntüdə: dollar və avro 50 faiz bahalaşdı

**2015-ci il fevralın 21-də manatın dollara nisbətdə 34 faiz devalvasiyasından (1 AZN+1.05 ABŞ dolları) düz 10 ay sonra, dekabrın 21-də dolların manata qarşı rəsmi məzənnəsi 1,55 manata qalxıb. İl ərzində ölkənin iqtisadiyyatının analoqsuz inkişafından danışan hökumət indi acı reallıqla üzləşib: Azərbaycan manatı 2015-ci il ərzində MDB və Avropa məkanında ən çox dəyərdən düşən valyuta olub...**




# "Qara bazar ertəsi"- "yaşıl inqilab" ölkəni çalxalayır

## Mərkəzi Bank fevral devalvasiyası ərəfəsində olduğu kimi, yenə də xalqı aldatma yolu tutdu; bir gecədə manatı yarıbayarı qiymətdən salmağın izahı verilməlidir; son 10 ayda ölkə vətəndaşının maddi cəhətdən çökdürülməsi prosesi gedir və hökumət təcili tədbirlər görməlidir...

Hələ fevraldakı devalvasiyanın yaratdığı problemlərdən qurtulmayan Azərbaycan vətəndaşları bu dəfə manatın 50 %-dək ucuzlaşması şoku ilə üzləşiblər. Fevralda milli valyutaların bir-birinin ardınca dəyərdən düşdüyü keçmiş sovet respublikaları sırasında Azərbaycandakı devalvasiya ən kəskini hesab olunurdu. Fevralda neftin qiyməti 50-55 dollar arasında dəyişirdi və ehtimal etmək olardı ki, ilin sonunadək neft gəlirləri manatın kursunu sabit saxlamağa imkan verəcək. Lakin elə fevral-mart aylarında nüfuzlu "Bloomberg" agentliyi proqnoz verirdi ki, neftin qiyməti yenə də kəskin düşəcək və bu hədd hətta 20 dollar da ola bilər. Bu isə iqtisadiyyatı neftdən asılı olan ölkələr üçün fəlakət demək idi. Mərkəzi Bank bu ehtimallara nəzərən Azərbaycanın üzən məzənnəyə keçəcəyini, amma ölkənin hələ buna hazır olmadığını bəyan edirdi. Azərbaycan büdcəsinə rəsmi rəqəmlərə görə, 1 milyarddan da baha başa gələn Avropa Oyunlarından sonra manatın kursunun sabit saxlanıla biləcəyi az ehtimal olunurdu. Büdcədən izafi xərcləmələr, neftin 40 dollar həddinə düşməsi, Neft Fondunun gəlirlərini və Mərkəzi Bankın valyuta ehtiyatlarını da kəskin azaltmışdı ki, bu prosesin devalvasiya ilə nəticələnəcəyi hər ötən gün daha çox gözlənilirdi. Amerika Federal Ehtiyatlar Sisteminin (FES) uçot dərəcələrini qaldırmasından sonra manatın da "fatihəsi" verilmiş sayılırdı. Amma Mərkəzi Bank fevral devalvasiyası ərəfəsində olduğu kimi, yenə də xalqı aldatma yolu tutaraq, FES-in qərarının manatın kursuna hiss ediləcək təsirinin olmadığını dedi. Mərkəzi Bank "haqlı çıxdı": FES-in qərarı manatın kursuna təsir etmədi, onu yerlə bir etdi, canını aldı və insanlarımızın ailə ehtiyaclarına ayırdığı aylıq manat büdcəsini kağız parçasına çevirdi. Sosial şəbəkələrdə manata yas tutulması ilə bağlı yüzlərlə videoçarxların yayılması Azərbaycan vətəndaşının qara gəlmiş bazar ertəsinə özünəməxsus etirazıdır - hamı ağlayır...

**"İlk növbədə benzinin qiymətinin endirilməsi ilə yaranmış gərginliyi nisbətən aradan qaldırmaq olar. Aztəminatlı ailələrə, təqaüdçülərə dəstək artırılmalıdır. Hökumət əhalidə şok effekti yaratmış bu qərarın psixoloji yükünü azaltmaq üçün xalqa olumlu mesajlar verməli, dərhal məvacibləri artırmalıdır"**

Əlbəttə, hökumətin deməyə sözü var: "Azərbaycan dünya iqtisadiyyatı ilə əlaqəlidir", "neftin qiyməti düşür", "xaricdən malı dollarla alırıq" və sair. Bunlarla müəyyən mənada razılaşmaq da olar. Amma bir gecədə manatı yarıbayarı qiymətdən salmağın izahı verilməlidir. Dənizdə yaxınlaşmaqda olan fırtınada kapitanlar (hökumət) ilk növbədə sərnişinlərin təhlükəsizliyini, xilasını, xilasedici jiletini düşünməlidir. Amma etiraf edilməlidir ki, son 10 aydakı qəfil qərarlar göstərdi ki, hökumət bu bəladan qurtulmaq üçün ilk növbədə özünü düşünüb. O da etiraf edilməlidir ki, Azərbaycan iqtisadiyyatı illərdir neft pulu ilə nəfəs alıb, qeyr-neft sektoru yaddan çıxıb, neft gəlirlərini bir neçə nazirlik mənimsəyib, xalqa məxsus olan təbii sərvətlərdən gələn gəlir bir neçə nazir-məmurun, onların övladlarının milyonluq villalarının daş-qumuna, hasarına xərclənib, fabrik-zavod, istehsal müəssisələri qurmaq əvəzinə Heydər Əliyev prospektində milyonlara başa gələn inzibati binalara sərf olunub, neft pulundan oğurlanan vəsait hesabına xaricdə əmlaklar alınıb özəlləşdirilib, bir il sonra dağılan yollara səpələnib, mənasız proyektlər şəklində ciblərə axıb, Neft Fondunun pulları, valyuta və əmlak yatırımları belə düzgün yönləndirilməyib. Azərbaycan xalqı indi böhran dövründə Neft Fonduna gözünü dikməli, oradakı vəsaitlərlə böhranı minimal itkilərlə ötüşdürəcəyinə əmin olmalı idi. Amma indi əks mənzərə yaranıb: Neft Fondu da, Mərkəzi Bank da gözünü xalqın cibinə dikib.

**"Azərbaycan vətəndaşı müxalifəti dəftərindən həm də ona görə silmişdi ki, manatımız dünyanın ən güclü valyutası idi, hökumət də çalışırdı ki, ölkədə iqtisadi böhran olmasın. Azərbaycandakı siyasi sabitlik illərdir ki, həm də vətəndaşın büdcə sabitliyindən qaynaqlanır"**

Mərkəzi Bank manatın ABŞ dollarına qarşı 48%-lik devalvasiyasından rəsmi valyuta ehtiyatlarının həcmini kəskin artırıb. Hesablamalarına görə, ölkədə dolların manata qarşı məzənnəsinin 1,0494 manatdan 1,55 manata yüksəlməsi Mərkəzi Bankın sərəncamında olan ehtiyatların manat ekvivalentində 48% və ya 3 mlrd. 145 mln. 272,160 min manat artmasına gətirib. Mərkəzi Bankın sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi 2015-ci il dekabr ayının 1-nə 6 mlrd. 245,6 mln. dollar olub. Başqa sözlə, əgər 6 mlrd. 245,6 mln. dollarlıq ehtiyat dekabrın 21-nə qədər olan məzənnə ilə manata konvertasiya olunsa idi, bu rəqəm 6 mlrd. 535,396 mln. manat edəcəkdi. Bugünkü məzənnə ilə konvertasiya edəndə isə Mərkəzi Bankın valyuta ehtiyatları manat ekvivalentində 9 mlrd. 680,668 mln. manata bərabərdir. Və sair... Rəqəmlərin içərisində itib-batmağa ehtiyac yoxdur, bu, Azərbaycan vətəndaşının cibindən bir gecədə oğurlanmış puldur. Yəni həmin zərərdən Mərkəzi Bankın varlanmasıdır.

***

Azərbaycan vətəndaşı bu münasibəti haqq etmir. Azərbaycan vətəndaşı müxalifəti dəftərindən həm də ona görə silmişdi ki, manatımız dünyanın ən güclü valyutası idi, hökumət də çalışırdı ki, ölkədə iqtisadi böhran olmasın. Azərbaycandakı siyasi sabitlik illərdir ki, həm də vətəndaşın büdcə sabitliyindən qaynaqlanır. Son 10 ayda isə ölkə vətəndaşının maddi cəhətdən çökdürülməsi prosesi gedir və hökumət təcili tədbirlər görməlidir.

Bu tədbirlər isə qanunların, cərimələrin artırılması demək deyil. İlk növbədə benzinin qiymətinin endirilməsi ilə yaranmış gərginliyi nisbətən aradan qaldırmaq olar. Aztəminatlı ailələrə, təqaüdçülərə dəstək artırılmalıdır. Hökumət əhalidə şok effekti yaratmış bu qərarın psixoloji yükünü azaltmaq üçün xalqa olumlu mesajlar verməli, dərhal məvacibləri artırmalıdır. O cümlədən banklara 2 milyon borclu vətəndaşların *(xüsusilə dollarla kredit götürənlər)* vəziyyətini yüngülləşdirmək üçün banklarla təcili danışıqlara başlanmalıdır. Hökumət "üzən məzənnə" dediyi bazarı sabitləşdirməli, bundan Azərbaycan xalqının qanına susamış bəzi işbazların sui-istifadə hallarının qarşısını almalıdır. Artıq bütün şirkət və firmalar pərakəndə və topdansatış mərkəzlərinə mal və məhsul verilməsini dayandırıb. Bəzi marketlər ərzaq mağazalarını bağlayıb, qiymət artımına hazırlaşırlar. Şübhə yoxdur ki, ən zəruri ərzaq malları, o cümlədən bayram süfrəsi üçün lazım olan şam belə yeni qiymətlərlə bazara çıxarılacaq. Yerli istehsalçılar belə artıq bahalaşmaya start verib. Onların da hökumət kimi bəhanəsi var: xammalı xaricdən dollarla alırıq.

"Qara bazar ertəsi", ölkədə "yaşıl inqilab" effekti doğurdu ki, bu da təcili tədbirlər görülməsə, ölkədəki sosial gərginliyi daha da artıracaq. Hökumət nə yazıq ki, bunun üçün Azərbaycan vətəndaşına bütün bəhanələri verib...

❑ Xəbər xidməti

YENİ MÜSAVAT
N 285 (6313) 22 dekabr 2015

**"Azərbaycan və Tacikistan Səudiyyə Ərəbistanının rəhbərliyi altında İslam hərbi koalisiyasına daxil ola bilər". Bu barədə beynəlxalq ərəbdilli qəzet olan "Aşarq əl-ausat" məlumat yayıb (APA). Yazıda bildirilir ki, ölkəmizin Ər-Riyaddakı səfiri Rasim Rzayev Bakının Səudiyyə Ərəbistanının təklifini nəzərdən keçirdiyini təsdiqləyib.**

# Azərbaycan İslam koalisiyasına doğru - seçim anı yaxınlaşır

## İşğalçı Ermənistanın müttəfiqi İrandansa, qardaş Türkiyənin yanında yer almalı; təhlükəni öz evində gözləməkdənsə, ona qarşı getmək daha yaxşıdır...



"Azərbaycan Ər-Riyadın terrorizmlə mübarizədə göstərdiyi səyləri dəstəkləyir və bu, bizim ölkənin maraqlarına uyğundur. Ona görə də biz islam hərbi koalisiyasına daxil olmaq təklifini nəzərdən keçirirk", - deyə o bildirib. Qeyd olunur ki, Tacikistan prezidenti Emomali Rahmon yanvar ayında Səudiyyə Ərəbistanına səfər edəcək və kral Salmanla görüşəcək. Görüşdə tərəflər terrorizmlə mübarizə sahəsində ikitərəfli əməkdaşlığı və Tacikistanın İslam hərbi koalisiyasında iştirakı perspektivini müzakirə edəcəklər.

***

Yada salaq ki, Səudiyyə Ərəbistanı dekabrın 15-də hərbi və ideoloji planda terrorizmlə mübarizə üçün islam koalisiyasının yaradılması təşəbbüsü ilə çıxış edib. Koalisiyaya 34 ölkə daxil olub. 10-dan çox müsəlman ölkəsi isə koalisiyanı dəstəklədiyini bəyan edib. Onların arasında Azərbaycan da var.

Hələlik Bakı götür-qoyadadır. Ancaq ötən saylarımızda vurğuladığımız kimi, iki strateji müttəfiqimiz - qardaş Türkiyə və Pakistanın da təmsil olunduğu alyansa qoşulmaq ölkəmizə qorxunc perspektivdən çox, əslində bir sıra önəmli üstünlüklər vəd edir. Bura ilk növbədə milli təhlükəsizliyimizin daha etibarlı qorunması yönündə əlavə imkanların (informasiya, kəşfiyyat məlumatları mübadiləsi və s.) açılması ilə yanaşı, Dağlıq Qarabağ məsələsində İslam dünyasının daha güclü dəstəyinə nail olmaq daxildir.

Doğrudur, Azərbaycanın İŞİD kimi terrorçu qrupların hədəfinə gəlmə ehtimalı artacaq. Lakin o da var ki, terror təşkilatı birdən-birə onlarla müsəlman ölkəsinə qarşı qisas aktı törətmək imkanında olmayacaq. Üstəlik, yeni koalisiyanın qurulması onun maliyyə imkanlarının ciddi şəkildə məhdudlaşmasına gətirəcək. Maliyyəsiz isə İŞİD təhlükəsi heç bir şeydir.

Ən önəmlisi, Azərbaycan beynəlxalq terrorizmlə mübarizədə öz layiqli töhfəsini verəcək və bunun yaxşı mənada qarşılığını alacaq. Başqa yandan, on illərdir erməni terrorundan əziyyət çəkən Azərbaycan Qarabağ məsələsində xristian dünyasında, Qərbdə də daha anlaşıqlı münasibətə tuş gələ bilər.

Koalisiyaya qoşulmağı zəruri edən daha bir mühüm detal: məntiq diktə edir ki, təhlükəni öz evində gözləməkdənsə, ona qarşı getmək, onu evindən uzaqlarda qarşılamaq daha doğrudur - hansı ki, bir çox ölkələr elə bu cür edir. Müxtəsəri, alyansa qoşulmağın gətirəcəyi üstünlüklər zərərlərlə müqayisədə qat-qat çox görünür.

Başqa sözlə, Azərbaycan koalisiyaya qoşulmazsa, o halda sadalanan yeni avantajlardan məhrum olacaq, üstəgəl, Qarabağ kimi problemi olan Azərbaycan haqda etibarsız tərəfdaş imici formalaşa bilər - bütün buradan çıxan arzuolunmaz nəticələrlə birgə. O zaman yeganə təsəllimiz alyansa qoşulmaqdan imtina eləmiş qonşu İranın - işğalçı Ermənistanın müttəfiqinin təqdirini qazanmaq olacaq. Dəyərmi?

***

Yeri gəlmişkən, İran erməni işğalı məsələsində olduğu kimi, İslam koalisiyası məsələsində də öz adındakı "İslam" sözünün mahiyyətinə zidd hərəkət eləməkdə, ümmətin deyil, öz dövlətinin maraqlarından çıxış eləməkdədir. Elə isə niyə Azərbaycan da öz köklü milli maraqlarını əsas götürməsin? Bir daha bu qənaətin altını cızaq ki, qardaş Türkiyə harda, biz də orda.

Milli maraqlardan söz düşmüşkən, əsla təsadüfi deyil ki, İran Türkiyənin İsraillə təzədən yaxınlaşmağa başlamasını artıq süngü ucunda qarşılayıb. Bununla bağlı İran XİN-in yaydığı açıqlamada Türkiyə "Qüdsü işğal edən rejimlə əlaqələr qurmaqda" ittiham olunur.

**İran Xarici İşlər Nazirliyinin sözçüsü Sadıq Hüseyn Cabiri Ənsari bu xüsusda deyib:** "İran üçün önəmlisi odur ki, müsəlman ölkələrinin siyasətində həm öz, həm də müsəlman xalqlarının mənafeləri nəzərə alsın. Xüsusilə bu, on illərdir İsrailin işğalına məruz qalmış məzlum Fələstin xalqının hüquqlarının bərpasına mənfi təsir göstərməsin. Türkiyə hökumətinin İsraillə əlaqələrin inkişafı istiqamətində yürütdüyü siyasət enişli-yoxuşlu olub. Son illər sionist rejimin "Mərmərə" gəmisinə etdiyi hücumdan sonra Türkiyə hökuməti İsraillə əlaqələri dondursa da, bir çox sahələrdə əlaqələr davam etdirilirdi. Türkiyə qonşu ölkələrlə problemləri olduğu halda Qüdsü işğal edən bir rejimlə əlaqələr qurur. Ümid edirik ki, Türkiyə hökuməti öz qonşuları ilə bağlı elə siyasətlər yürüdəcək ki, bu, regionda mövcud olan problemlərin həlli üçün şərait yaradacaq".

***

Burda deyiblər, "Adımı sənə qoyum, səni də..." Heç də pis olmazdı ki, rəsmi Tehran başqalarının gözündə tük axtarmaq əvəzinə, öz gözündəki tiri görsün. "İran üçün önəmli olan odur ki, müsəlman ölkələrinin siyasətində həm öz, həm də müsəlman xalqlarının mənafelərini nəzərə alsınlar" - deyib, İran rəsmisi. Bəs müsəlman Azərbaycan xalqının 20 faiz ərazilərini işğal etmiş, 1 milyon Məhəmməd ümmətini öz yurd yerindən didərgin salmış Ermənistanla əlaqələr quran, onun üçün on illərdir "nəfeslik" rolu oynayan, indi də müsəlman koalisiyasına arxa çevirən ölkə hansıdır - Türkiyə, yoxsa "İran İslam Respublikası"?

❑ **Zahid SƏFƏROĞLU**

# Dünyanın gələcəyini müəyyən edən seçkilər: fəlakət namizəd kimdir?

## Elxan Şahinoğlu: "Tramp Ağ Evə sahib olsa, Amerikanın başına çox böyük fəlakətlər gələ bilər"

**Amerikada seçki marafonu start götürüb. ABŞ vətəndaşları 2016-cı il noyabrın 8-də ölkənin növbəti prezidentini seçməyə hazırlaşır. Lakin artıq indidən prezidentliyə namizədlərin debatları dünya mediasının gündəmindədir. Çıxışlardan belə aydın olur ki, dünya düzəni ABŞ-da keçiriləcək seçkilərin nəticələrindən asılı olacaq. Hazırda iki namizədin adı mediada daha çox hallanır. Bunlar Demokrat Partiyasının namizədi Hillari Klinton və Respublikaçılar Partiyasından namizədliyə iddiaçı Donald Trampdır. Son olaraq Trampın müsəlmanlara qarşı səsləndirdiyi ifadələr bütün dünyada geniş təpki qazanıb və ən böyük rəqibi olan xanım Hillarinin əlində əsas silaha çevrilib.**

Bəs görəsən, müsəlmanların ABŞ-a buraxılmasının məhdudlaşdırılmasını irəli sürən Donald Tramp prezident seçiləcəyi halda nələr baş verə bilər? Dünyanın taleyi Amerikadakı prezident seçkilərindən nə dərəcədə asılıdır?

"Yeni Müsavat"a açıqlamasında bu sualları cavablandıran **politoloq Elxan Şahinoğlu** bildirdi ki, Trampın seçilmək ehtimalı azdır və əgər o, seçilsə Amerikanı fəlakətə sürükləyə bilər: "Respublikaçı namizədlər arasında Tramp daha çox populyardır. Bu da Amerika üçün qeyri-adi hadisədir. Adətən tanınmış siyasətçilər, Konqresdə olan simaların prezident seçilmək şansı daha çox olur. Tramp Konqresdə də təmsil olunmur. Sadəcə, böyük varidatı olan xarizmatik bir insandır və fikirləri ilə cəmiyyətin diqqətini cəlb edir.



Elxan Şahinoğlu

Amma düşünürəm ki, son anda Amerika cəmiyyəti məsuliyyətli qərar verərək Trampı seçməyəcək. Çünki Trampın şüarları elədir ki, Ağ Evə sahib olduqdan sonra səsləndirdiyi şüarları tədricən həyata keçirməyə çalışsa, Amerikanın başına çox böyük fəlakətlər gələ bilər. Onun "müsəlmanları Amerikaya buraxmaq olmaz" açıqlaması irqi və dini ayrı-seçkiliyin yaradılması deməkdir".

**Politoloqun fikrincə, Hillari Klintonun seçilmək şansı daha çoxdur:** "Klinton dövlət katibi vəzifəsində çalışıb, neçə illərin konqresmenidir, dünya siyasətində öz yeri və dəst-xətti var. Klinton Trampla yarışsa, mən xanım namizədin şansını daha yüksək qiymətləndirirəm. Həm də Amerikada ictimai rəyə böyük təsiri olan beyin mərkəzlərinin də Hillari Klintona üstünlük verəcəyini düşünürəm. Trampın prezident seçilməsi Amerikanın xarici və daxili siyasətində təhlükəsizlik məsələləri ilə bağlı elə böyük problemlər yarana bilər ki, onun altından çıxmaq çətin olar".

**Elxan Şahinoğlu onu da qeyd etdi ki, bu gün Trampın reytinqinin yüksək olması o demək deyil ki, həmin vətəndaşlar mütləq mənada ona səs verəcək:** "Həm də Amerikada seçki qanunu bir qədər fərqlidir. Vətəndaş birbaşa prezidenti seçmir, nümayəndələrini seçir, onlar da özləri prezidenti seçirlər. Trampın şüarları vətəndaşların diqqətini cəlb edir. O, iqtisadiyyatı düzəldəcəyinə, terrora qarşı mübarizə aparacağına, terrorun əsas səbəbkarı hesab etdiyi müsəlmanları ölkəyə buraxmayacağına vəd verir və cəmiyyətdə müəyyən simpatiya toplayır. Seçkiyə yaxın həmin vətəndaşlar həm də düşünəcəklər ki, bu insan prezident seçilsə, bu məsələləri necə həll edəcək. Bütün müsəlman dünyası ilə Amerika düşmən olsa, bu hansı nəticələrə səbəb olacaq. Ona görə də Trampın reytinqinin yüksək olması o anlama gəlmir ki, seçkilərdə də reytinqi yüksək olacaq. Çünki prezident yarışmasında onun rəqibi bir nəfər olacaq və bu iki nəfər arasında rəqabət gedəcək. Məhz orada vətəndaş artıq məsuliyyətli qərar verəcək".

**Politoloq qeyd etdi ki, Trampın bu çıxışları sonradan rəqiblərinin əlində ona qarşı silaha çevriləcək və onu nüfuzdan salacaq:** "Klinton hazırda Trampa qarşı müxtəlif hücum taktikasını müəyyənləşdirir. Onun zəif yerlərini və səhvlərini tapıb Trampa qarşı istifadə etməyə çalışır. Tramp debatlarında bildirir ki, Putin düz edir, onunla əlaqə qurub bu məsələlərin həllinə çalışmalıyıq. Halbuki Amerikanın beyin mərkəzləri bir çox bəlaların başında məhz Putinin durduğunu deyirlər. Bu cür səhvlərindən Klinton Trampa qarşı istifadə edir və seçki yaxınlaşdıqca o zəif nöqtələrdən Klinton daha çox Trampı vurmağa çalışacaq. Seçkilərin nəticələrini indidən söyləmək çətindir. Çünki hələ bir il zaman var. Ancaq mən Trampın prezident olacağını ehtimal etmirəm. Hesab edirəm ki, insanlar son anda məsuliyyətli qərar verəcəklər və Amerika cəmiyyətinə təsir edən o lobbilər də Trampın necə riskli bir prezident olacağını anlayırlar. Klintonun da prezident seçiləcəyini söyləmək tezdir. Lakin bu bir həqiqətdir ki, Trampın prezident seçilməsi dünyanı və Amerikanı böyük bir fəlakətə sürükləyə bilər. Fəlakət baş verməsin deyə Amerikadakı o güclər sonda Trampın rəqibləri üzərində dayanacaqlar. Bu, respublikaçı namizəd də ola bilər, demokratlardan daha layiqli bir namizəd də..."

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 285 (6313) 22 dekabr 2015

# Manat il ərzində ikinci devalvasiyaya uğradı...

## Bu il milli valyuta 98 faiz dəyər itirdi, 1 dollar 1,55 manat oldu; ekspertlər manatın yenə ucuzlaşacağını bildirir...

**Azərbaycanın milli valyutası olan manat il ərzində ikinci dəfə devalvasiyaya uğrayıb. Fevralda dəyərini 34 faiz itirən manat dekabrın 21-də yenidən 47 faiz itirib. Mərkəzi Bank yaydığı bəyanatda bunu daha çox neftin qiymətinin enməsi ilə bağlayıb: "Yaranmış şərait valyuta bazarının və manatın məzənnəsinin yeni neft qiymətlərinə uyğunlaşmasını zəruri edib".**



Bildirilib ki, üzən məzənnə rejiminə keçilməsi barədə qərara əsasən, manatın məzənnəsi başlıca olaraq valyuta bazarında tələb və təklifin nisbətini müəyyən edən fundamental amillərin təsirinə uyğun olaraq formalaşacaq. Qeyd edək ki, manatın son on ay ərzində ümumi devalvasiyası 98 faiz təşkil edib. Ekspertlərin fikrincə, neftin qiyməti azalmağa davam edərsə, manatın məzənnəsi düşəcək. Neftin qiymətinin 25 dollara qədər azalması gözlənilir ki, bu halda dolların Azərbaycanda məzənnəsinin 2 AZN/USD-yə yaxınlaşması mümkündür. Ölkədə dolların manata qarşı məzənnəsinin 1,0494 manatdan 1,55 manata yüksəlməsi Mərkəzi Bankın sərəncamında olan ehtiyatların manat ekvivalentində 48 faiz və ya 3 milyard 145 milyon 272,160 min manat artmasına gətirib çıxarıb.

**Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, manatın məzənnəsinin yaxın müddətdə yenidən düşəcəyi gözləniləndir:** "Problem devalvasiyanın özündə deyil. Problem devalvasiyaya gətirib çıxarmadadır ki, heç bir tədbir görülmədi. Hələ apreldə Elman Rüstəmovu növbəti, 5-ci dəfə Mərkəzi Bankın sədri təyin edəndə demişdim: bu təyinat o deməkdir ki, o, növbəti devalvasiyanı da həyata keçirəcək. Elman Rüstəmov fevral devalvasiyasından sonra ötən 10 ay ərzində ölkədən valyuta axınının qarşısını almaq üçün heç nə etmədi, əksinə, bankların açıq valyuta mövqeyi limitini ləğv etdi və növbəti devalvasiya üçün tam şərait yaratdı, digər səhv qərarlar verdi. Mərkəzi Bank nəzdindəki Maliyyə Monitorinqi Xidməti ölkədən valyutanın qaçırılmasına mane olmadı. Həm fevral devalvasiyasından sonra demişdim, həm də bugünkü devalvasiyadan sonra deyirəm: devalvasiya qaçılmaz idi və ilk növbədə Azərbaycandan asılı olmayan faktorların nəticəsidir. Bu il ərzində əksər ölkələrin milli valyutası devalvasiyaya məruz qalıb. Lakin heç yerdə əhali və sahibkarlar bizdəki kimi devalvasiyadan belə ağır zərər çəkməyib. Bunun günahkarı Mərkəzi Bankın mövcud rəhbərliyidir. Elman Rüstəmov təsadüfi və savadsız kadrdır. Prezidentin gözündən pərdə asmaq üçün illər boyu ölkəmiz üçün səhv və zərərli pul siyasəti həyata keçirib, banklara çox pis nəzarət edib. Bunun nəticəsində Azərbaycanın valyuta ehtiyatları əriyib, əhali və sahibkarlar dollar krediti bataqlığına düşüb. Ölkədə normal bank sistemi yoxdur. Yalnız Mərkəzi Bankın rəhbərliyinin kommersiya banklarının sahibləri və rəhbərliyi ilə sıx qohumluq və dostluq əlaqələri var. Belə bank sisteminin nə demək olduğunu yaxında hamımız görəcəyik: o çökəcək! Bankların əksəriyyəti müflis olacaq. Amma zərər çəkən bank sahibləri və rəhbərləri deyil, sıravi əmanətçilər olacaq. Buna görə də üzümü ilk növbədə əmanətçilərə tuturam: sonra deməyin ki, sizi xəbərdar etməmişdilər, ehtiyatlı olun, pulunuzu kimə etibar etməyinizin fərqində olun. Lakin ən ağır vəziyyətdə təbii ki, kredit təşkilatlarına dollar borcu olanlardır. Onların borcu daha da artdı. Mərkəzi Bank onların problemini həll etmədi, kreditlər manata çevrilmədi. Konstitusiya Məhkəməsinin may qərarı icra olunmadı: banklar əhaliyə güzəştə getmədi. Ümumiyyətlə, heç nə edilmədi. Çünki Azərbaycanda faktiki olaraq Mərkəzi Bank və bank nəzarəti yoxdur. Banklar bundan sonra borclulara qarşı daha da azğınlaşacaq. Borclular haqlarını tələb etməlidirlər".

**Ekspert Samir Əliyev isə qeyd edib ki, üzən məzənnəyə keçid manatın dünya bazarlarındakı proseslərə həssaslığını artıracaq:** "Açıqlamalarda qeyd etmişdik ki, hökumət valyuta ehtiyatlarını qoruyacaq və uzağı 5 milyard dollara qədər əriməsinə imkan verəcək. Son məlumatlara əsasən Mərkəzi Bankın ehtiyatı 5,5 milyard dollardan da aşağı düşmüşdü. Belə təzyiq altında ehtiyatlar çox davam gətirə bilməzdi. FED uçot dərəcələrini qaldıranda bunun birbaşa təsirinin olmayacağını, ancaq hökumətin qərarını tezləşdirəcəyini qeyd etmişdik. Hər bir halda insanları aylarla üzən hadisə baş verdi. Qazaxıstan və Rusiya təcrübəsi göstərdi ki, üzən məzənnəyə keçid özündə ilk növbədə kəskin ucuzlaşmanı göstərir. Biz də fərqli ssenari olmadı. Ancaq Rusiya və Qazaxıstan iqtisadiyyatları ilə müqayisədə zəif inkişaf etmiş Azərbaycanda bunun fəsadları da ağır olmalı idi və olacaq da. Mərkəzi Bank fevral devalvasiyasından sonra manatın tədricən yumşaldılması siyasətini həyata keçirməli idi. Ancaq bunu etmək əvəzinə yenidən manata süni nəfəs verməyə çalışdı. Nəticəsi artıq bəllidir. Əgər manatın məzənnəsi tədricən ucuzlaşdırılsaydı, indi kəskin devalvasiyaya ehtiyac qalmazdı. Üzən məzənnəyə keçid manatın dünya bazarlarındakı proseslərə həssaslığını artıracaq. Neft ucuzlaşdıqca, dollar bahalaşdıqca, manatın ucuzlaşmasını müşahidə edəcəyik. Ancaq bu, tam üzən məzənnə olmayacaq. Mərkəzi Bank ehtiyatları hesabına imkan daxilində manatın kəskin ucuzlaşmasına imkan verməyəcək. Hər bir halda sabit məzənnə dövrü bitdi. Manatın avroya nəzərən məzənnəsi necə dəyişirdisə, dollara nəzərən məzənnəsi də eyni qaydada dəyişəcək".

**Ekspertin sözlərinə görə, bu, manatın ucuzlaşmasının son həddi deyil:** "Bundan sonra da proses davam edəcək. Ola bilsin müəyyən zaman kəsiyində manatın bahalaşması baş versin. Ancaq bu müvəqqəti xarakter daşıyacaq. Əsas tendensiya ucuzlaşma istiqamətində olacaq. Hökumət əhalini, Mərkəzi Bank isə bankları qorumalıdır. Banklar bu prosesdən zərbə alacaqlar. Bunun neqativ təsiri gələn ilin yaz aylarından başlayaraq hiss olunmağa başlayacaq. Bazarı tərk edən bankların sayı artacaq. Problemli kreditlər artacaq, əhalinin kredit ödənişində ləngimələr genişlənəcək. Bank sektorunda ixtisarlar daha geniş vüsət alacaq. Əsas problem inflyasiya olacaq. Hökumət yenə də inzibati yolla qiymət artımının qarşısını almağa başlayacaq. Ancaq bu, çox çəkməyəcək. Qiymətlər artacaq. Ona görə hökumət devalvasiyanın təsirlərini minimuma endirmək üçün təcili gömrük rejimini yumşaltmaq barədə düşünməlidir. Bu sferada inhisar aradan qalxmalıdır".

**Ekspert Oqtay Haqverdiyev isə «Trend»ə bildirib ki, Azərbaycanın üzən məzənnəyə keçməsi dünya valyuta bazarında gedən proseslərdən irəli gələn məcburi tədbirdir:** "Bizim indi gördüyümüz- bu, manatın real məzənnəsidir. Azərbaycan Mərkəzi Bankının hazırkı addımını manatın real qiymətinə tərəf hərəkətin başlaması kimi qiymətləndirmək olar. Güman edirəm ki, dolların bahalaşması prosesi 2016-cı il ərzində də axarlı şəkildə davam edəcək. Mənim ekspert qiymətləndirmələrimə görə, dolların real məzənnəsi 3 manatdan 5 manatadək təşkil edə bilər". **Ekspert Mərkəzi Bankın bu addımını məcburi adlandırıb:** "Əgər dünya valyuta bazarında baş verən proseslər olmasa idi, heç nəyi dəyişmək lazım gəlməzdi. Lakin Azərbaycan xarici ticarətini dollarla apardığı üçün bu addım məcburi şəkildə atılıb. Üzən məzənnəyə keçidin məqsədi AMB-nin ehtiyatlarının bərpası deyil. Ehtiyatlar onun üçün yaradılır ki, belə fors-major hallarda vəziyyətdən çıxmağa imkan versin. Lakin iqtisadi elm baxımından istənilən milli valyuta buraxılmalıdır. Onun real qiymətini valyuta bazarında tələb və təklif prinsipi müəyyənləşdirməlidir. Belə vəziyyətdə iqtisadiyyat da ahəngdar inkişaf edir".

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov isə bildirib ki, Mərkəzi Bank bu qərarı çoxdan verməli idi.** "Bununla da yumşaq devalvasiyanın tənzimlənən prinsipinin tətbiqi həyata keçiriləcək. Mərkəzi Bankın valyuta ehtiyatları tükənmək üzrədir. Bu azalma davam etməkdədir və uzun müddət davam edə bilməzdi. Qonşu ölkələrdə valyutalar dəyərdən düşür, biz isə ehtiyatlardan istifadə edərək manatın məzənnəsini qoruyub saxlayırdıq. Ona görə də üzən məzənnə siyasətinə keçmək mütləq idi. Manat gec-tez öz dəyərini almalıdır. Hansı səviyyədə qərarlaşacaq, onu zaman göstərəcək",- deyə, ekspert modern.az-a qeyd edib. Onun sözlərinə görə, manat ucuzlaşmaqda davam edəcək: "Rəqəmləri söyləmək düzgün olmaz, amma proses gedəcək. Bütün bunlar isə neftin dünya bazarlarındakı qiymətlərindən asılı olaraq tənzimlənəcək. Azalmalar davam edəcəksə, bu yaxşı heç nə vəd etməyəcək. Əksinə, neftin qiyməti qalxarsa, baxmayaraq ki, bu da inandırıcı deyil, o zaman problem müəyyən qədər həll oluna bilər". Deputat manatı rubl qədər olmasa da, çətin günlər gözlədiyini deyib.

**Ekspert Vüqar Bayramov isə deyib ki, manatın məzənnəsinin aşağı düşməsinin mənfi təsirinin azaldılması üçün əmək haqlarının indeksasiyası vacibdir. Onun sözlərinə görə, məzənnənin aşağı düşməsinin sosial təsirlərinin minimallaşdırılmasına ciddi ehtiyac var:** ""Bu baxımdan təbii ki, həm əmək haqqı, həm də əmanət indeksasiyası olmalıdır. Mənfi təsirlərin aradan qaldırılmasına çalışılmalıdır". Ekspert Report.az-a bildirib ki, dollarla götürülən kreditlərin qaytarılması ilə bağlı yeni mexanizmlərin işlənməsinə də ehtiyac var: "Çünki dollarla götürülən kreditlərin qaytarılmasında problemlərin olacağı gözlənilir". **Ekspertin sözlərinə görə, növbəti dəfə manatın məzənnəsinin dəyişməsi birbaşa neftin qiymətindən asılı olacaq, neftin qiymətində azalmalar olarsa, manatın məzənnəsində də azalma olacaq. Onun sözlərinə görə, manatın məzənnəsinin azalması prosesi artıq ölkənin tədiyyə balansından asılı olaraq dəyişəcək:** "Məzənnə birbaşa neftin qiymətindən və Mərkəzi Bankın bazara hansı səviyyədə müdaxilə etməsindən asılı olacaq. Əgər Mərkəzi Bank bazara müdaxiləni minimallaşdırsa, məzənnədə daha çox azalmalar müşahidə edilə bilər. Amma Mərkəzi Bank bazarda qalıb kursa müəyyən qədər təsir göstərməyə çalışsa, o zaman təbii ki, bu, manatın məzənnəsinin kəskin azalmasının qarşısını ala bilər. Manatın məzənnəsinin növbəti dəyişməsi birbaşa artıq Mərkəzi Bankın qəbul edəcəyi qərardan asılı olacaq".

❑ **Röya RƏFİYEVA**

**Mərkəzi Bank rəhbərliyi fevral ayındakı devalivasiya öncəsi olduğu kimi, bu dəfə də xalqın başının altına "yastıq" qoyaraq öz işini gördü. Amerika Federal Ehtiyatlar Sisteminin (FES) uçot dərəcələrini qaldırmasından sonra diqqətlər Mərkəzi Bankın manatın məzənnəsi ilə bağlı hansı qərarı açıqlayacağına yönəlmişdi. 17 dekabrda APA-ya bankın adının çəkilməsini istəməyən rəsmisi bildirdi ki, FES-in qərarı manata təsirsiz ötüşməyəcək.**

# 10 ayda xalqı iki dəfə aldadan Elman Rüstəmov...

## Mərkəzi Bankın rəhbəri qandallanmalıdırmı?



Elman Rüstəmov

Ancaq bunun ardınca Mərkəzi Bank təkzib yayaraq bildirdi: **"ABŞ-ın Federal Ehtiyatlar Sisteminin ABŞ dollarının uçot dərəcəsinin artırılması ilə bağlı qərarının manatın ABŞ dollarına qarşı məzənnəsinə təsirinə dair Mərkəzi Bank hər hansı rəsmi açıqlama verməyib. Manatın ABŞ dollarına qarşı məzənnəsi sabit dinamikada davam edir".**

Xatırladaq ki, fevral ayında manatın 34 faizlik kəskin devalivasiyasından bir neçə gün öncə də Mərkəzi Bankın sədri Elman Rüstəmov açıqlamasında bildirmişdi ki, manat kəskin ucuzlaşmayacaq.

Elman Rüstəmovun çıxışından cəmi bir neçə gün sonra, fevralın 21-də Mərkəzi Bankın qərarı ilə manat 34 faizə yaxın ucuzlaşdı. Həmin dövrdə 1 dollar 0.78 manatdan 1.05 manata çatdı. Bu gün isə 21 dekabrdır. Fevral ayındakı kəskin devalivasiyanın 10-cu ayında 1 dollar 47,63% və ya 0,501 manat artaraq 1,5500 manat olub.

Belə olan təqdirdə xalqı iki dəfə aldadan Elman Rüstəmov qandallanmalıdırmı?

**Məsələ ilə bağlı iqtisadçı Natiq Cəfərli musavat.com-a açıqlamasında bildirib ki, Elman Rüstəmov belə olan təqdirdə ilk olaraq istefa verməlidir:** "Elman Rüstəmov faktiki olaraq insanlara yalan danışıb. Bu, məcburiyyətdənmi doğub, yoxsa insanları aldatmaq istəyib, söyləmək çətindir. Ancaq ən azından dediyi sözlərin həyata keçirilməsində problemlər olduğu ortadadır. Onun açıqlamasının tam əksi baş verib. Bu, mənəvi məsuliyyət yaratmalıdır. Mərkəzi Bankın rəhbərliyi ən azı mənəvi məsuliyyətə görə istefaya getməlidir. Eyni zamanda bir şeyi də nəzərə almaq lazımdır ki, Elman Rüstəmov rəsmi bir şəxs olduğu üçün onun sözlərinə inanıb, hərəkət edən on minlərlə insan ola bilər. Həmin şəxslərə də maddi ziyanlar dəyib. Artıq mənəvi yox, maddi ziyandan söhbət gedir. Belə olduğu təqdirdə insanlara dəyən maddi zərər üçün də Elman Rüstəmov məsuliyyət daşıyır. Ona görə də qeyd etdiyim kimi, birinci addım olaraq istefaya getməlidir. Təkcə Elman Rüstəmov yox, bu kimi açıqlamalar verən digər məmurlar da istefa verib, hökumətdən getməlidirlər. Bu addımı gözləməyə Azərbaycan vətəndaşının haqqı var".

**Hüquqşünas Müzəffər Baxışın fikrincə, proses ümumən araşdırıldıqdan sonra konkret hüquqi addım atmaq olar:** "Elman Rüstəmov Mərkəzi Bankın sədridir və onun işi budur ki, ajiotajın qarşısını alsın. Baxmaq olar ki, əgər o, Mərkəzi Bankın sədri kimi vəzifədən sui-istifadə edibsə, şəxsi və digər maraqları nəticəsində cinayət əməllərinə yol veribsə, o zaman məsələyə hüquqi baxımdan yanaşmaq olar. Misal üçün, onun fəaliyyəti yoxlansa, Mərkəzi Bankdan dövlət əmlakının mənimsəməsi faktı ortaya çıxarsa, onu Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb etmək olar. Konkret olaraq, bu adamın fəaliyyəti araşdırılıb ona hüquqi qiymət verilməlidir. Ancaq bəhs etdiyimiz çıxışı ilə bağlı onu məsuliyyətə cəlb etmək qeyri-mümkündür".

❑ **Əli RAİS**



# Valyutadəyişmə məntəqələri qapılarını bağladı



**Manatın dollara nisbətdə ucuzlaşmasından sonra ölkədə əksər valyutadəyişmə məntəqələrinin fəaliyyəti dayanıb. Musavat.com-un əməkdaşı şahidi olub ki, dekabrın 21-də səhər saatlarından etibarən mübadilə məntəqələri öncə məzənnə lövhəsindən dolların yeni qiymətlərini çıxarsalar da, sonradan fəaliyyətlərini tamamilə dayandırıblar.**

Musavat.com-a danışan iqtisadçı Rəşad Həsənovun fikrincə, burada bir neçə səbəb var: "Birinci səbəb ondan ibarətdir ki, bu gün məzənnədə edilən dəyişikliklərin analizi aparılır. Özləri üçün müəyyən edirlər ki, sonrakı dövrlərdə hansı istiqamətlərdə kurslarını davam etdirəcəklər. İkinci səbəb odur ki, şənbə və bazar günləri məntəqələrin Mərkəzi Bankdan dollar almaq imkanı olmur. Buna görə də bir çox valyutadəyişmə məntəqələrində artıq xarici valyuta ehtiyatı tükənib. Bildiyimiz kimi, iki gün idi ki, valyuta bazarlarında müəyyən ajiotaj müşahidə olunurdu. Ajiotaj nəticəsində məzənnədə də müəyyən dəyişiklik baş vermişdi. Dollar təxminən 1.07 AZN-ə satılırdı. Bu gün böyük ehtimalla Mərkəzi Bank intervensiya həyata keçirməyib. Mərkəzi Bank tərəfindən dollar satışının olmaması isə valyutadəyişmə məntəqələrini çətin vəziyyətdə qoyub. Buna görə ən yaxşı halda müştərilərin qarşısına çıxmaq istəmirlər. Bir məqam da var ki, bu cür hallarda müştərilər valyutadəyişmə məntəqələrinə gedərək, oradakı şəxslərə öz iradlarını, qəzəblərini bildirirlər. Bu kimi səbəblərə görə məntəqələrin bəzilərində fəaliyyət dayanıb".

❑ **Əli RAİS**

# Dolların qalxması ərzağın qiymətini də kəllə-çarxa çıxardı

## Bir sıra marketlər satışı dayandırıb; alıcılar marketlərə doluşub ərzaq ehtiyatı görür, çünki...

**Yanvarın 21-də manat növbəti dəfə devalvasiyaya uğradı. Hazırda 1 dollar 1.5500 manat, avro isə 1,6850 manat təşkil edir. Bu məzənnə dəyişikliyi ərzaq məhsullarının qiymətindən də yan keçməyib. Dünən səhər saatlarından bütün mağazalarda və bazarda sanki bir təlaş yaşanıb, əksər marketlərdə bir çox ərzaq məhsullarının qiyməti bahalaşıb. Bir sıra marketlər isə ümumiyyətlə qapılarını bağlayıblar.**







Qiymətlərlə tanış olmaq üçün bir neçə marketə və paytaxtın ən ucuz bazarı hesab edilən 8-ci kilometr bazarına üz tutduq. İlk olaraq "Rahat" marketə baş çəkdik. Alıcılar kifayət qədər idi və hər kəs tələsik ərzaq məhsulları alırdı ki, qiymətləri bahalaşacaq. Satıcılar isə ərzaqların qiymətini dəyişdirməklə məşğul idilər. Hətta satıcılar öz aralarında "filan ərzağın qiyməti neçə oldu" deyərək bir-birindən xəbər tuturdular. Adının çəkilməsini istəməyən satıcı yumurtanın 15 qəpikdən 18 qəpiyə qalxdığını və bir alıcıya 15 dənədən artıq yumurta satmadıqlarını dedi. Səbəbini soruşduqda isə bunu yumurta qıtlığı ilə əlaqələndirdi: "Bizdə yumurta əvvəllər 13 qəpik idi, indi isə 18 qəpiyə satırıq. Çox güman ki, yumurtanın qiyməti 20 qəpiyədək bahalaşacaq. Bəzi marketlər bir alıcıya 10 dənədən artıq yumurta satmır, biz isə 15 dənəyə qədər satırıq".

Mağazada demək olar ki, bütün məhsulların qiymətində 5 qəpik - 1 manat arasında bahalaşma müşahidə etdik. Belə ki, əvvəllər 60 qəpiyə satılan "Sun" salfetkası indi 65 qəpiyə, 80 qəpiyə satılan "Aura" salfetkası indi 87 qəpiyə, əvvəllər 10 manata, 8 manat 50 qəpiyə satılan ətlər isə indi 10 manat 60 qəpiyə, 12 manata satılırdı. Toyuqların qiymətində də cüzi artım müşahidə etsək də, satıcı toyuğun qiymətinin daha da artacağını deyirdi. Toyuğun hisə verilmiş döş əti 4 manat 85 qəpiyə satılırdı. Kərə yağlarının qiymətində də növündən asılı olaraq 30-40 qəpik arasında bahalaşma vardı. Qəndlərin və şəkər tozlarının qiymətində 5-10 qəpik bahalaşma müşahidə etdik. Çayların qiymətinə gəlincə isə "Çempion" çayı 1 manat 19 qəpiyə, "Beta Tea" 1 manat 24 qəpiyə, "Berqa" 1 manat 19 qəpiyə, "Final" 1 manat 15 qəpiyə, "Azərçay" 99 qəpiyə satılırdı. Göründüyü kimi, çayların da qiymətində 5-10 qəpik arasında bahalaşma var. "Supersun" tomatı 1 manat 56 qəpik, "Bizim tarla" tomatı 1 manat 13 qəpik, badımcan kürüsü 2 manat 65 qəpik, yaşıl noxudlar isə 2 manat, 2 manat 68 qəpik arasında, duzlu xiyarlar 1 manat 65 qəpik və 4 manat 40 qəpik arasında satılırdı. İki litrlik "Final" qarğıdalı yağı 5 manat 5 qəpik, "Möcüzə" qarğıdalı yağı isə 3 manat 9 qəpiyə satılırdı. Bundan əlavə, makaron və verməşillərin də qiymətində cüzi artım müşahidə etdik. Bahalaşma içkilər və sulardan da yan keçməyib. Belə ki, suların qiymətində 4-10 qəpik arasında bahalaşma vardı. Satıcılardan yerli məhsulların qiymətinin bir gün içərisində bu qədər bahalaşma səbəbini soruşduqda onlar "biz sadəcə olaraq satıcıyıq, səbəbləri bilmirik" deyə cavab verdilər: "Bircə onu deyə bilərəm ki, əhali nə almaq istəyirsə, bu bir-iki gün ərzində alsın. Bacardığı qədər ərzaq ehtiyatını görsün. Çünki qiymətlər bir-iki gündən sonra daha da bahalaşacaq".

**Alıcılar da bahalaşmanı qınayır və öz etirazlarını bildirirdilər. Alıcı Samirə Əliyeva bahalaşmadan çox qəzəbləndiyini deyirdi:** "Camaatı düşünən yoxdur. Banka dollarla kredit borcu olanları düşünməli bir yana, bir tərəfdən də qiymətləri artırırlar. Heç olmazsa, bayramdan sonra qiymətləri artırardılar. Camaat bayram keçirərdi".

**Elə satıcılar da yaranmış mövcud vəziyyətdən narazı idilər. Hamısı bir ağızdan "başımıza oyun açır bu dollar" deyirdi. Hətta market satıcıları arasında işini itirmək qorxusu yaşayanlar da vardı. Satıcı Əhməd Qurbanov deyir ki, əgər dollar bahalaşıbsa, onları da işdən çıxaracaqlar:** "Çox güman ki, müdir bir neçə işçini ixtisara salacaq. Bir neçə gün əvvəldən də deyirdi ki, dollar bahalaşsa, mağazamıza təsir edəcək. Məcburam ki, hər 5 işçidən ikisini çıxardım".

Bazarda da hər kəs bir ağızdan dolların qalxması mövzusunu danışırdı. Bazarlarda qiymət artımı olsa da, satıcılar bunu dolların qalxması ilə əlaqələndirmirdi. Qiymətlərə gəlincə isə bir həftə əvvələ qədər 14, 16, 18 manata satılan qoz ləpələrinin indi ən ucuzu 16 manata, ən bahalısı isə 22 manata satılırdı. Bir neçə gün əvvələ qədər 1 manat 50 qəpiyə, 2 manata satılan pomidorun qiyməti 2-3 manat arasında satılırdı. 5 dənəsi 1 manata satılan bibər indi 4-ü 1 manata, xiyar 2 manata, göyərtinin bir dənəsi isə 20 qəpiyə satılırdı. Dolmalıq balaca badımcanlar 3 manata, nisbətən böyükləri isə 2 manata satılırdı. Kartof 60 qəpik-1 manat arası idi. **Pomidor satışı ilə məşğul olan Azər Quliyev qiymət artımının dollarla əlaqəli olmadığını dedi:** "Demək olar ki, aldığımız qiymətə satırıq. Məsələn, pomidor yoxdur deyə baha alırıq. Pomidoru Rusiya bir tərəfdən daşıyır, restoranlar da bir tərəfdən. Pomidor təkcə Bakıdadır, o da azdır".

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**



# Müxalifət "devalvasiya dərsi"ndən 2 aldı, imtahandan kəsildi

Elçin XALİDBƏYLİ

**Manatın devalvasiyası ölkədə ictimai əhval-ruhiyyəni ciddi şəkildə dəyişib. İndi ölkənin əsas ictimai müzakirə mövzusu manatın devalvasiyasından sonra ölkənin vəziyyətinin necə ola biləcəyi ilə bağlıdır. Mətbuat və sadə vətəndaşlar sosial şəbəkələrdə bu mövzunu geniş şəkildə müzakirə edirlər.**

Bəli, vəziyyət kifayət qədər ciddidir. Və real situasiyanın tam çılpaqlığı ilə ortaya çıxması üçün hələ bir qədər də zamana ehtiyac var. Böyük ehtimalla həmin ehtiyac duyulan zaman vətəndaşa dəyən zərbənin ağırlığını təsəvvür etmək imkanları açacaq.

Ancaq təəssüfləndirici bir önəmli məqam da var. Belə ki, ölkədə yalnız ictimai əhval-ruhiyyə dəyişib. Siyasi əhval-ruhiyyə isə elə əvvəlki kimi qalıb. Sanki ölkədə heç nə baş verməyib. Baş veribsə də, bütün bunların siyasətə heç bir dəxli yoxdur.

Məsələn, hakimiyyətin iqtisadi komandası böyük israrla susur. Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov istisna olmaqla, hakim dairələrin ölkədə baş verənlərə heç bir reaksiyası yoxdur. Halbuki normalda hökumət rəsmilərinin manatın son bir ildə ikinci sarsıdıcı devalvasiyasına izahı olmalıydı. Azərbaycan vətəndaşlarına baş verən olayın səbəbləri və mümkün nəticələri barədə inandırıcı açıqlamalar verilməliydi. Eyni zamanda hökumətin mövcud vəziyyət və gözlənilən situasiyalarla bağlı planlaşdırdığı sosial-iqtisadi addımlar, hazırladığı proqramlar barədə məlumatlar verilməliydi.

Əlbəttə ki, bütün bunların heç birisi olmadı. Görünür, hökumət atdığı addımın sarsıdıcı zərbələrindən vətəndaşları müdafiə etmək üçün sosial plana, iqtisadi proqrama malik deyil. Ola bilsin ki, hökumət həm də devalvasiyadan sonrakı ictimai proseslərin müşahidə edilməsinə də ehtiyac duyur. Və ümumiyyətlə, hökumət üçün bu mövzuda indi danışmaq o qədər də sərfəli deyil.

Ancaq mövcud situasiyada hökumətin davranışlarından daha çox təəccüb doğuran məhz müxalifətin susqunluğudur. Və bunu anlamaq çox çətindir. Çünki manatın devalvasiyasına hökumət qərar verdiyi üçün hakim dairələr bu barədə susmaqda və mümkün qədər zaman qazanmağa cəhd göstərməkdə maraqlıdır.

Halbuki eyni fikirləri müxalifət barədə söyləmək mümkün deyil. Çünki belə situasiyalara çevik reaksiya vermək müxalifət düşərgəsinin siyasi borcudur. Yəni hər bir ölkədə müxalifət ona görə olmalıdır ki, sadə vətəndaşların maraqlarını ifadə etsin. Hökumətin yanlış addımlarını təhlil və tənqid etmək, eyni zamanda daha doğru yolun göstərilməsi müxalifət düşərgəsinin əsas fəaliyyət hədəfi olmalıdır.

Ola bilsin, bəziləri etiraz edəcəklər ki, manatın ucuzlaşdırılması barədə qərarı hökumət verib, ancaq müxalifət ittiham olunur. Halbuki belə etirazlar tamamilə yersizdir. Çünki əgər müxalifət, doğrudan da müxalifətdirsə, onda öz borcunu mütləq yerinə yetirməlidir.

Ən əsasısa, hökumət vətəndaşların maraqlarına zərbə vuran addımları atmağa o hallarda belə rahatca cəsarət edir ki, ölkədə ya ümumiyyətlə, müxalifət olmur. Və ya da müxalifət o qədər zəif olur ki, hakim dairələr öz fəaliyyət funksiyalarını yerinə yetirə bilməyən bu düşərgənin mövcudluğuna sadəcə, "əlini yelləyir", onun təsirinə əhəmiyyət belə, vermir.

Yəni heç kim yaxasını kənara çəkməməlidir və etiraf edilməlidir ki, ölkənin indiki vəziyyətinə görə hökumətlə yanaşı, öz fəaliyyət funksiyalarından uzaq düşən müxalifət də siyasi və mənəvi-psixoloji məsuliyyət daşıyır. Bu məsuliyyəti qəbul etməyənlər isə xalq hörmət əlaməti olaraq, müxalifət düşərgəsindən çəkilməli və bacardıqları işlərlə məşğul olmalıdırlar.

İndi bir məsələ də çox maraqlıdır. Sadə əhalinin sarsıdıcı maliyyə zərbəsi aldığı bir gündə buna axşama qədər heç bir reaksiya verməyənlər seçkilərdə vətəndaşlardan hansı mənəvi haqla səs istəyəcəklər. Axı bu xalq çətin günündə əhalini dəstəkləməyənlərin arxasınca niyə getməlidir ki..? Xalqın kimsəyə, əvəzsiz dəstək borcumu var?

Təbii ki, bu gün baş verənlər müxalifət düşərgəsi üçün növbəti bir imtahan idi. Və müxalifət düşərgəsi növbəti dəfə "2" aldı, imtahandan kəsildi, sinifdə qaldı. İndi özünüz qərar verin, bu ölkəyə sinifdə qalan müxalifət lazımdırmı və xalqa fayda verə bilərmi?

# ANS-dən Qənirə Ataşova qalmaqalında inkar taktikası...

## "Nə video? Biz elə video görməmişik"

**ANS TV-nin ABŞ-a ezam olunmuş və orada yaşayan xüsusi müxbiri Qənirə Ataşova ilə bağlı mövzu hələ də gündəmin müzakirə mövzularındandır. Sosial şəbəkələrdə yayımlanan videoda görünür ki, Qənirə Ataşova Amerika Dövlət Departamentinin sözçüsü Con Kibriyə ingilis dilində sual verməyə çalışır. Lakin ingiliscə yaxşı bilməyən jurnalistin sualını dövlət sözçüsü anlamır.**

Qeyd edək ki, bu videonu bir neçə saat ərzində minlərlə istifadəçi paylaşıb və jurnalisti kəskin tənqid ediblər. Maraqlıdır ki, tənqidçilərin çoxu Ataşovanın həmkarları olub.

Artıq ANS səviyyəsində buna cavab verilib. **ANS TV Xəbərlər Xidmətinin baş redaktoru Xanım Yadigarlı** ANS-in xüsusi müxbirinin sualı ətrafındakı qalmaqala rəy bildirib. X.Yadigarlı yazıb: "Azərbaycanı həmin mötəbər tədbirdə yalnız ANS təmsil edir və olaydan 15 min km uzaq məsafədə oturub, məsələdən bixəbər olanlara bir də anlatmaq istəyirəm - Peşəkar və Vətənpərvər Jurnalist məhz belə etməli idi! Ona görə də Qənirə Ataşovaya minnətdar olmaq lazımdır, qınamaq yox. Qınanılası tərəf varsa, o, bu gün də kölə psixologiyası ilə yaşayan və heç bundan xilas olmağa cəhd də etməyənlərdir"...

**ANS-in əməkdaşı, aparıcısı Səbinə Ağayeva Heydərova da sosial şəbəkədəki statusunda bu mövzuya münasibətini belə açıqlayıb:** "Qənirə Dağlıq Qarabağla bağlı sual verir. Departament rəsmisi sualı çox qəşəng anladı. Sadəcə, onlara bu barədə danışmaq sərf etmir. Amerikan biri olmayan hər kəs ingilis dilində danışanda müəyyən ləhcələr olur. Amma insanın üstünə bu qədər getmək nə dərəcədə düzdür? Bəyəm Qənirənin verdiyi sualla Qarabağı yenidən itirdik??? Yoxsa Xəzərdə hələ də meyitləri tapılmayan 23 neftçinin meyitini yenidən dənizə atdıq?"

**Bu situasiyaya fərqli prizmadan yanaşanlar arasında APA-nın redaktoru, tanınmış jurnalist Şahin Cəfərli də var.**



**Mais Məmmədov:** "O yazıq nə edib axı?"

**Ş.Cəfərli sosial şəbəkədəki statusunda yazıb ki, Amerikadakı müxbir ingilis dilini, Rusiyadakı müxbir rus dilini, İrandakı müxbir fars dilini, Zimbabvedeki müxbir yerli şona dilini azı orta səviyyədə bilməlidir:** "Bilməsə, lazımi səviyyədə informasiya alıb, öz ölkəsinə çatdıra bilməyəcək. Bu qədər bəsit. Hər məsələdə ikiyə bölünüb mübahisə etmək zorunda deyilik. "Bakıdakı ingilis guya bizim dilimizi bilir?" şəklində məişət millətçiliyinə, yaxud da kiçiklik kompleksindən qaynaqlanan, "sualı verən erməni olsaydı, amerikalılar bu cür reaksiya göstərməzdi" şəklində Küçük Emrahvari sızlanmalara ehtiyac yoxdur, məncə. Bir neçə gün əvvəl elə həmin Kirbi erməni qızı Qayane Çiçakyana ağzından çıxanı demişdi, "YouTube"da var, istəyən baxa bilər".

Ş.Cəfərli bununla yanaşı, həmkarımız olan Q.Ataşovanın lağa qoyulmasına etiraz edib və bunu yolverilməz saydığını deyib.

**Q.Ataşovanı dəstəkləyənlərdən biri də "Yeni Müsavat" qəzetinin redaktoru Nazim Sabiroğludur. Həmkarımız öz köşə yazısında ANS əməkdaşının ingilis dilini mükəmməl bilməməsini normal qiymətləndirib:** "Amerikada telekanal təmsil edirsənsə, gərək ki, ingilis dilini biləsən. Amma bu o demək deyil ki, gərək mükəmməl biləsən. Heç bilməmək də olar. Azərbaycanın bir çox nazirləri heç rusca belə əməlli danışa bilmir. Rusiyaya səfərə gedəndə yanlarında tərcüməçi də olur. Lap əcəb edirlər də. Ayıb öz dilini ingilis və ya rus kimi danışmaqdır. Qənirə isə Azərbaycan dilində telekanaldan gördüyümüz qədər, səlis danışır.

Guya Azərbaycanda akkreditasiya olunmuş xarici ölkə agentliklərində çalışanlar, süfrəmizin başında oturan ingilis iş adamları Azərbaycan dilindən imtahan verirlər? Yox, çoxu ancaq illərlə burda iki söz öyrənir; "dolma" və "piti" deyə bilir. Amma biz gülmürük. Fəxr edirik. ABŞ diplomatları da gərək Azərbaycana bu cür saygısızlıq göstərməyəydilər".

Amma N.Sabiroğlunun mövqeyi jurnalistika prinsipləri baxımından qəbul olunan sayılmır. Neyçün ki, burda insani, həmkar təəssübkeşliyindən daha çox peşəkar planda tənqiddən söhbət gedir. İnsan kimi, azərbaycanlı kimi bir-birimizi müdafiə etməyimiz onlara peşəkar plandakı səhvlərinə göz yummaq lüksünü vermir.

**ANS prezidentinin müşaviri Mayis Məmmədov isə "Yeni Müsavat"a açıqlamasında Q.Ataşovanın mətbuat konfransında sual verməsi ilə bağlı hər hansı videomaterial yayımlamadıqlarını və ümumiyyətlə, bu süjetdən xəbərsiz olduqlarını bildirdi:** "Kim Qənirənin yanında Amerikada olub ki, sualı düzgün vermədiyini bilsin? O baxmışam dediyiniz materialı kim hazırlayıb, kim verib? İstənilən işdə sübut lazımdır. "Sualı düzgün qurmayıb, dili yaxşı bilməyib" deyənlərdən soruşuram: kim bunu hazırlayıb? Bizə heç bir süjet göndərməyib. Mən bütün "Xəbərçi"yə baxıram. Orda elə süjet yoxdur. Mətbuat istəsə, məni ermənı edə bilər. Mətbuatda nəyinsə yazılması sübut deyil".

**M.Məmmədovun sözlərinə görə, bu məsələ ANS-də müzakirə olunmayıb:** "Niyə olunmalıdır ki? Nə olub ki, bunu araşdıraq? Ortada material yox, sübut yoxdur. Kimsə sosial şəbəkələrdə yazıbsa, bu, sübut sayılmır. Soruşmaq istəyirəm ki, bunun müəllifi kimdir? Mən orda işləyirəm illərdir. Bütün "Xəbərçi"ni izləyirəm, borcumdur. Mən deyirəm ki, olmayıb. Qənirə xanımla danışmamışıq. Sabah kimsə yazacaq ki, Mayis müəllim milyardlarla pul oğurlayıb. Belə çıxır ki, mən bunun yalan olduğunu sübut etmək üçün dəridən-qabıqdan çıxacam?"

**Müsahibimizdən "əgər elə bir video yoxdursa, ANS-dəki həmkarları niyə Qənirə Ataşovanı müdafiə edən yazılar, statuslar yazdılar" soruşduq. M.Məmmədov dedi ki, bunu həmin şəxslərdən soruşmaq lazımdır:** "Nə edib axı o yazıq? Jurnalistikanı anlayıram. Sensasiya lazımdır. Bir az qaşınan yer olan kimi başlayırsız qaşımağa ki, qan gəlsin. Bu günə qədər yalan deməmişəm və deməyəcəm də. Heç kimdən də qorxum yoxdur, 80 yaşım var".

❑ Sevinc TELMANQIZI

# Britaniyanın baş naziri Etibar Məmmədova məktub göndərib

**Böyük Britaniyanın baş naziri, Konservatorlar Partiyasının lideri Devid Kameron AMİP lideri Etibar Məmmədova Yeni il münasibətilə təbrik ünvanlayıb. AMİP mətbuat xidmətindən "Yeni Müsavat"a verilən xəbərə görə, Kameron təbrikdə AMİP lideri Etibar Məmmədova gələcək fəaliyyətində uğurlar arzulayıb.**

Xatırladaq ki, AMİP 1999-cu ildən aralarında Böyük Britaniyanın Mühafizəkarlar (Konservatorlar), İsveçin hakim Moderat, Almaniyanın Xristian Demokratlar, İspaniyanın Xalq Partiyası, eləcə də ABŞ-ın Respublikaçılar, Fransanın Xalq Hərəkatı Birliyi -partiyalarının da olduğu dünyanın 70-ə yaxın ölkəsinin 100-dən çox sağ-mərkəzçi partiyalarını özündə birləşdirən Beynəlxalq Demokrat İttifaqının ( BDI) üzvüdür. AMİP Etiabr Məmmədov isə BDİ-nin sədr müavinidir. Adıçəkilən partiyaların əksəriyyəti ölkələrində iqtidar partiyasıdır.



Etibar Məmmədov

❑ E.SEYİDAĞA




# Bern görüşündən sonra Ohanyan Qarabağa, Sərkisyan Moskvaya...

## Düşmən ölkə gərginliyi artırır; Azərbaycan XİN başçısı masa üzərində konkret təkliflər olduğunu deyir, lakin İrəvan sülhə hazır görünmür; siyasi və hərbi ekspertlər situasiyanı şərh edir...

**Azərbaycan və Ermənistan prezidentlərinin 2015-ci ildə reallaşan yeganə görüşü də son aylarda təmas xəttində müşahidə olunan gərginliyi azaltmadı. Əksinə, ötən şənbə İsveçrənin Bern şəhərində keçirilmiş danışıqlar ərəfəsi hökm sürən gərginlik elə görüşün davam etdiyi və ondan sonra keçən günlərdə də davam etdi.**

Ermənistan Müdafiə Nazirliyi dekabrın 20-nə keçən gecə də təmas xəttində ağır artilleriyanın və minomyotların tətbiqi ilə döyüşlərin davam etdiyini bildirib. Eyni zamanda Ermənistan tərəfi bildirir ki, Azərbaycan ordusu təmas xəttinin Ağdərə istiqamətində yenə də tankdan istifadə edib. Hərçənd ki, Ermənistan Müdafiə Nazirliyinin rəsmisi Artsurun Ovanisyan təmas xəttində dekabrın 20-nə keçən gecə vəziyyətin ötən günlərə nisbətən "qismən sakit" keçdiyini bildirir. (Virtualaz.org)

Azərbaycan Müdafiə Nazirliyinin son günə olan döyüş xronikasında isə göstərilir ki, düşmən mövqelərinə onlarla atəş zərbəsi endirilib. Ötən həftə boyu gedən döyüşlərdə erməni silahlı birləşmələrinin azı 18 nəfər itki verdiyi, 20 nəfərinsə yaralandığı təsbit olunub. Həmçinin Azərbaycan ordusunun ötən gecə daha bir şəhid verdiyi açıqlanıb. Bu, Müdafiə Nazirliyinin son bir həftədə açıqladığı 4-cü əsgər itkisidir. Ermənistan tərəfin rəsmən açıqladığı itkilər isə 7-dir.

Ermənistanın müdafiə naziri Ohanyanın təcili şəkildə Dağlıq Qarabağa gələrək separatçıların lideri ilə görüşməsi, hərbçilərə baş çəkməsi də düşmənin son itkilərə görə narahatlığının əlamətidir. Lakin erməni nazirin Azərbaycan ərazilərinə gəlməsi növbəti də danışıqlara hörmətsizlik və beynəlxalq prinsiplərə məhəl qoyulmamasından xəbər verir. Düşmən bununla ATƏT-in Minsk Qrupu həmsədrlərinin bəyanatında əksini tapan çağırışlara da tüpürmüş oldu.

Ermənistan prezidenti Serj Sərkisyanın məhz Bern görüşündən sonra Moskvaya səfər etməsi də diqqət çəkir. Erməni tərəfi Ermənistan dövlət başçısının mətbuat xidmətinə istinadən xəbər yayıb ki, Sərkisyan dekabrın 21-də KTMT və Avrasiya İqtisadi İttifaqı şuralarının sessiyalarında iştirak üçün Moskvaya gedib. Lakin şübhə yoxdur ki, Sərkisyan Rusiya prezidenti Putinə danışıqlarla bağlı hesabat verməyə gedib. Cəbhədə baş verənlər və düşmənin davranışları isə daha çox ondan xəbər verir ki, 2016-cı ildə də sülh danışıqlarından heç bir pozitiv nəticə gözləməyə dəyməz və hərb variantı hər an reallaşa bilər. Ermənistanın XİN başçısı E.Nalbəndyanın tərəflərin mövqelərinin bir-birindən çox uzaq olması barədə dedikləri də nikbinliyə yer qoymur.

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov AZƏRTAC-a müsahibəsində deyib ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov tərəfindən ATƏT-in Minsk Qrupunun həmsədr dövləti kimi münaqişənin həlli ilə əlaqədar münaqişə tərəfləri olan Azərbaycan və Ermənistana təkliflər təqdim olunub:** "Bu təkliflər 2014-cü il ərzində prezidentlərin Soçi, Nyu-Port və Paris görüşləri zamanı əldə edilmiş razılaşmaları ehtiva edərək, yenilənmiş Madrid prinsipləri əsasında hazırlanıb. Altı bənddən ibarət olan yenilənmiş Madrid prinsipləri isə geniş ictimaiyyətə bəllidir. Burada Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətrafında olan işğal edilmiş rayonların mərhələli şəkildə işğaldan azad edilməsi, o cümlədən digər məsələlər əks olunub. Beləliklə, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən dəstəklənən və yenilənmiş Madrid prinsipləri əsasında hazırlanmış təkliflərdən çıxış edərək hərtərəfli sülh sazişinin hazırlanması prosesinə başlamağın vaxtıdır".

**Ancaq nazirin dediklərindən bəlli olur ki, Ermənistan buna getmək istəmir:** "Qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca təxribat-diversiya əməlləri törətməklə qəsdən vəziyyəti gərginləşdirmək, Azərbaycanın işğal olunmuş ərazilərində müxtəlif qeyri-qanuni əməllər həyata keçirməklə Ermənistan hər vəchlə münaqişənin həllinə mane olmağa çalışır".

***

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, Sərkisyanın Bern görüşündən dərhal sonra Moskvaya getməsinin iki səbəbi var:** "Birinci səbəb odur ki, Sərkisyan bununla hamıya mesaj göndərir ki, Moskvanın rəyi İrəvan üçün əsasdır. İkinci səbəb isə odur ki, Sərkisyan danışıqların təfərrüatı haqqında Rusiya rəsmilərini şəxsən məlumatlandırmalıdır. Həm də Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi Sərkisyanın işinə yarayır. Çünki nə qədər ki, Rusiya-Türkiyə münasibətləri normallaşmayacaq, Moskvanın Qarabağ münaqişəsinin həllinə marağından danışmaq yersizdir. Əslində bu maraq heç əvvəlki illərdə də olmayıb, əks halda, danışıqlar ölü nöqtədən tərpənməli idi".

**Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a dedi ki, Azərbaycan prezidentinin Ermənistan adlı formal dövlətin başçısı ilə Bern görüşünün əvvəlcədən heç bir nəticə verməyəcəyi çoxlarına bəlli idi:** "Şəxsən mən bu görüşdə bizim iştirakımızı o qədər də arzulamayan şəxslərdən biri idim. Ona görə ki, əvvəlcədən bilinirdi ki, bu görüş heç nəyi dəyişməyəcək və daha çox ATƏT-in Minsk Qrupuna növbəti yalanları, imitasiya xarakterli "fəaliyyəti" üçün daha çox lazım idi. Bu görüşün də ən çox xeyri məhz o "üç bacıya" - Minsk Qrupuna dəydi, desəm, yanılmaram. Onlar növbəti dəfə özlərinin necə riyakar olmasını ortaya qoydular. Şəxsən mənə maraqlı gəldi ki, görəsən, amerikalı həmsədr erməni separatçıları ilə mehriban pozalar verərək şəkil çəkdirməsini necə izah etdi? Üstəlik, növbəti mənasız görüşdən dərhal sonra ordumuz növbəti itkisini verdi. Bu, erməni və havadarlarının məkrli niyyətlərinin hələ uzun müddət davam edəcəyinin göstəricisidir. Ona görə də hesab edirəm ki, Azərbaycan tərəfi olaraq biz artıq belə formal xarakterli görüşlərə son qoymalıyıq və sərt şəkildə öz haqqımızı tələb etməliyik. Əgər Ermənistan xarici işlər naziri Nalbəndiyan deyirsə ki, mövqelər çox uzaqdır və üst-üstə düşmür, onda hansı nəticədən söhbət açmaq olar? Rusiyanın vassalı olan Ermənistan heç vaxt özü müstəqil şəkildə qərar verməl istidarında olmayıb və olmayacaq".



Üzeyir Cəfərov



Elxan Mehdiyev



Arzu Nağıyev

**Ü.Cəfərov əlavə etdi ki, şimal qonşumuzun da Qarabağ məsələsinin həll olunmasında heç bir nə həvəsi, nə də istəyi əsla görünmür:** "Təkcə Türkiyənin Qarabağın işğaldan azad edilməsinin vacibliyi barədə açıqlamasına Rusiyanın göstərdiyi sərt münasibət onların məqsəd və məramlarının nədən ibarət olmasının bariz nümunəsidir. Belə gedişlə biz hələ beynəlxalq qurumlar tərəfindən çox aldadılacaq və yalnız itkilərimizi saymaqla, onların yoxluğu ilə barışmalı olacağıq".

**Hərbi ekspertə görə, əslində Ohanyanın cəbhəyə səfəri də ona hesablanmışdı ki, əvvəlcədən heç bir nəticənin olmayacağını ermənilər bilirdilər:** "Onlar narahat idilər ki, Azərbaycan tərəfi, nəhayət, öz sözünü demək üçün lazım olan addımı atacaq. Yəni düşmənin davam edən təxribatlarını ram etmək üçün qətiyyətli addım atacaq və öz ərazi bütövlüyünü təmin etmək haqqında qərar verəcək".

**Konfliktoloq Elxan Mehdiyev həmsədrlərin yekun bəyanatında əksini tapan "hər iki tərəf deyib ki, təklif edilən nizamlama planının üstündə danışıqlar davam etdirilsin" fikrini imitasiya adlandırdı:** "Yəni hərə öz mövqeyində qalır, biz etiraz etmirik, deyirlər. Bu da elə deyilən imitasiyaya xidmət edən yanaşmadır. Ermənilər üçün "danışıqlar davam etdirilsin" fikri onların tam maraqlarına uyğundur. Azərbaycan isə əlacsız olaraq danışıqlardan çıxmamaq üçün buna gedir. Həmsədrlər göstərmək istəyirlər ki, tərəflər onların vasitəçiliyi ilə hərəkət etmək istəyir və Minsk Qrupu formatını qəbul edirlər. Bu da Azərbaycana ünvanlanıb. Onlar qorxuya düşüblər ki, Azərbaycan Minsk Qrupu formatından çıxıb məsələni digər beynəlxalq təşkilatlara daşımaq istəyir. Onlar üçün Yeni il hədiyyəsi artıq edildi və gələn il üçün də geniş büdcəli gəzintiləri var".

**E.Mehdiyev qeyd etdi ki, ortada Rusiyanın təklifinin olduğu söylənilir:** "Amma detalları haqqında bir şey bilmirik. Hər halda, mənim müşahidəm odur ki, Azərbaycan tərəfi torpaqlardan çıxmağı yenə əsas məsələ kimi irəli sürüb, erməni tərəfi isə təmas xəttində gərginlik bəhanəsi və həmsədrlərin köməyi ilə danışıqların gündəliyini texniki məsələlərin müzakirəsinə tərəf çəkib". **Ohanyanın Qarabağa gəlməsinə gəldikdə isə E.Mehdiyev deyir ki, burada sürpriz bir şey yoxdur:** "Bu, itkilərlə bağlıdır və onun özü bu yerləri çox yaxşı tanıyır. Gəlib ki, əlavə tədbirlər görsün".

**Politoloq Arzu Nağıyev bildirdi ki, Azərbaycanın danışıqlar masasına əyləşməkdə əsas məqsədi ərazi bütövlüyü məsələsinin təsbit olunmasıdır:** "Bu şərt qəbul olunarsa, artıq Dağlıq Qarabağ ərazisinə müəyyən statusun verilməsi, əhalinin yerləşdirilməsi, qoşunların təmas xəttindən çəkilməsi ilə status-kvo aradan götürülər. Bu gün ATƏT-in Minsk Qrupunun həmsədrləri deklorativ addımlardan bir zərrə qədər dərinə gedə bilmir. Onlar heç bu gün də tam şəkildə bəyan edə bilmirlər ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir. Baxmayaraq ki, bu qərarlar BMT tərəfindən qəbul olunub və qanuniləşib". **A.Nağıyev son zamanlar cəbhədəki gərginliyə diqqət çəkərək bildirdi ki, bu, ümumən regionda sabitliyin pozulmasına yönəlik təhlükəli vəziyyətdir:** "Rusiya-Türkiyə qarşıdurmasından sonra 102-ci briqadada canlı qüvvənin, texnikanın sayı artmaqdadır, balans pozulur. Bu da Dağlıq Qarabağ münaqişəsinin həllində müsbət addım deyil. Bu gün bu regionda baş verə biləcək hər hansı qarşıdurma bütün dünyanın istər siyasi, istərsə də iqtisadi arenasına böyük təsirlər göstərir, regionda böyük ölkələrin maraqları və bu maraqlardan doğan qarşıdurma var. Rusiya və Türkiyə qarşıdurması fonunda bunu söyləmək olar ki, bu münaqişə üçün nəzərdə tutulan texnika Ermənistana gedə bilər. İranla Azərbaycan arasında Dağlıq Qarabağdan keçən 140 km-lik bir məsafədə "Boz zona" deyilən nəzarətsiz yer var ki, ermənilər orada narkotik yetişdirir, qeyri-qanuni işlər aparır. Lakin Rusiya o zonanı özününküləşdirməyə çalışır. Məqsəd təbii ki, İran vasitəsilə NATO-nun regiona müdaxiləsinin qarşısını almaqdır. Bu isə Azərbaycanın ərazi bütövlüyünün pozulması deməkdir - baxmayaraq ki, bütün dünyaya məlumdur ki, Dağlıq Qarabağ münaqişəsi böyük bir müharibəyə keçə bilər".

**Politoloq hesab edir ki, Sərkisyanın Moskvaya səfərinin əsas məqsədi həm hesabat vermək, həm də təlimat almaqdan ibarətdir:** "Bundan başqa, Sərkisyan dünyaya bəyan etmək istəyir ki, Ermənistan Rusiya ilə bir yerdədir, müttəfiqdir və KTMT-nin üzvüdür. Bunun bir səbəbi də Ermənistanın özünün daxilində siyasi gərginliyin olmasıdır. Sərkisyan göstərməyə çalışır ki, Rusiyanın istəyi və marağı olmadan onu vəzifədən heç bir müxalifət sala bilməz və hazırda Moskvada belə bir istək və maraq da yoxdur".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN



# Əli Mirəliyev dolların qalxmasından danışdı: "Bu hələ başlanğıcdır"

**Dolların devalvasiyası şou-biznes aləmində də ciddi narahatlıq doğurub. Bununla əlaqədar olaraq bir çox məşhurlar sosial şəbəklərdə statular paylaşaraq üzüldüklərini bildiriblər.**

Müğənni Əli Mirəliyev isə olaya daha sərt reaksiya verib. Musavat.com-a danışan müğənni ölkədə yaşanan gərgin vəziyyətin hələ başlanğıc olduğunu deyib:

"Bu işlərin axırı yaxşı bitməyəcək. Bu artıq xaos deməkdir! Onsuz da camaat pis vəziyyətdə idi. İndi də bütün zəncirlər qırılıb, devalvasiya bundan da o yana qalxıbsa... Bircə onu bilirəm ki, biz azərbaycanlılıar heç vaxt hüquqlarımızı bilməmişik. Ona görə də torpaqlarımız işğal altındadır, başımıza da bu oyunları gətirilir. Bu hələ harasıdır ki, bu hələ başlanğıcdır".

**Əli Mirəliyev müğənnilərdən vergi yığılmasını da pisləyib:**

"Gör nə gündəyik , vəziyyət nə yerdədir ki, müğənnilərdən vergi yığılır. Müğənninin pulu var vergi versin?! Müğənni iş adamıdır? Müğənnilər yalan danışaraq deyirdilər ki, toylara 5-10 min manat gedirlər. Halbuki onlara heç 2 min manat verən yoxdur. Hamısı yalan söhbətlərdir. Elə bilirdilər ki, özlərini dağ başına qoymaqla öz-özlərinə qiymət verəcəklər. Elə deyil axı, müğənnini həmin qiymətə toya beş adam apara bilər, 95 faiz adamın buna imkanı yoxdur axı".

Qeyd edək ki, dekabrın 21-nə olan məlumata əsasən ölkədə 1 ABŞ dollarının rəsmi məzənnəsi 1 manat 55 qəpik olub.

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Dəm qazı daha iki can aldı

**Lənkəran rayonunda 7 aylıq hamilə qadın dəm qazından boğularaq ölüb. "Report"un məlumatına görə, hadisə rayonun Şağlaküçə kəndində baş verib.**

Belə ki, həmin kəndin sakini, 23 yaşlı Talihə Yüləd qızı Tağıyeva hamamda çimərkən qazdan zəhərlənib.

T.Tağıyeva təcili və tibbi yardım maşını ilə Lənkəran Şəhər Mərkəzi Xəstəxanasına çatdırılıb. Lakin onun həyatını xilas etmək mümkün olmayıb. T.Tağıyevanın meyiti Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Lənkəran şöbəsinə təhvil verilib.

Faktla bağlı Lənkəran Şəhər Prokurorluğunda araşdırma aparılır.

Abşeron rayonunda da dəm qazından ölüm hadisəsi baş verib.

APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, dekabrın 20-də Sulutəpə qəsəbə sakini Məlahət Şərifova yaşadığı evdə dəm qazından zəhərlənərək ölüb.

Faktla bağlı araşdırma aparılır.

# Bankın pulunu mənimsəyib qaçdı

**Azərbaycanda bank əməkdaşı beynəlxalq axtarışa verilib. APA-nın məlumatına görə, bu barədə İnterpolun saytında məlumat yerləşdirilib. Məlumatda qeyd olunur ki, 33 yaşlı Toğrul Mirzəzadə dələduzluq və vəzifə saxtakarlığında təqsirləndirilir. O, ölkədən qaçdığı üçün barəsində dövlətlərarası axtarış elan olunub və saxlanılması üçün İnterpola müraciət edilib. Hazırda onun tutulması istiqamətində axtarışlar davam etdirilir.**

APA-nın əldə etdiyi məlumata görə, T. Mirzəzadə "Parabank" ASC-nin Nizami filialının əməkdaşı olub. O, filialın digər əməkdaşı Orxan Uğurluzadə ilə qabaqcadan razılaşıb cinayət əlaqəsinə girərək müvafiq sənədlərin məzmununa tamah niyyəti ilə bilə-bilə yalan məlumatları daxil etməklə vəzifə səlahiyyətlərindən sui-istifadə edib aldatma yolu ilə 228 şəxsə kreditlərin ayrılmasına nail olaraq ümumilikdə 127 min 804 manat məbləğində banka məxsus külli miqdarda əmlakı ələ keçirməklə "Parabank" ASC-nin qanunla qorunan mənafelərinə mühüm zərər vurublar.

2014-cü ildə Orxan Uğurluzadəyə Cinayət Məcəlləsinin 178.3.2 (qulluq mövqeyindən istifadə etməklə dələduzluq), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələrində nəzərdə tutulan ittiham elan edilməklə barəsində həbs, Toğrul Mirzəzadəyə həmin məcəllənin 178.3.2 və 313-cü, Seymur Abdullayevə 178.3.2-ci, Əfqan Vəliyevə isə 178.2.1 və 178.2.4-cü maddələrində nəzərdə tutulan ittiham elan edilməklə barələrində həbslə bağlı olmayan digər qətimkan tədbiri seçilib.

Sonradan O. Uğurluzadə məhkəmə qarşısına çıxarılıb, T. Mirzəzadə isə Azərbaycandan qaçıb.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34





# Dövlət Filarmoniyasının direktoruna şiddətli töhmət verildi

**Dekabrın 21-də Mədəniyyət və Turizm Nazirliyinin kollegiya iclası keçirilib. Nazirliyin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən APA-ya verilən məlumata görə, nazir Əbülfəs Qarayevin sədrliyi ilə keçirilən iclasda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının 2012-2015-ci illər ərzində fəaliyyəti, Sumqayıt, Mingəçevir və Şəki dram teatrlarının yaradıcılıq fəaliyyəti və repertuar siyasəti, turizm sənayesi nümayəndələrinin xarici ölkələrdə keçirilən beynəlxalq turizm sərgilərində fəaliyyəti və bunun ölkəni ziyarət edən əcnəbi turistlərin dinamikasına təsiri, Şirvan şəhər, Neftçala və Yardımlı rayonlarının mərkəzləşdirilmiş kitabxana sistemlərində mövcud vəziyyət və kitabxana-informasiya şəbəkəsinin fəaliyyətinin təkmilləşdirilməsi, Bərdə, Saatlı və Göyçay rayonlarının uşaq musiqi və incəsənət məktəblərinin fəaliyyəti, "Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inkişafı üzrə Xüsusi Fəaliyyət Proqramı (2016-2020-ci illər)" layihəsinin qəbul olunması, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2016-ci ilin birinci yarımili üçün iş planının təsdiq edilməsi müzakirə olunub.**

İclasda Dövlət Filarmoniyasının idarə olunmasında ciddi nöqsanlara da yol verildiyi aşkarlanıb. Qeyd olunub ki, bədii şuraların iclasları keçirilmir, kollektivlərin repertuarının yenilənməsi, bilet satışı lazımi səviyyədə deyil. Ölkəmizin regionlarında konsertlər təşkil olunmur, beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün müvafiq işlər görülmür. Tədbirlər haqqında ictimaiyyət əvvəlcədən lazımi səviyyədə məlumatlandırılmır.

Mədəniyyət müəssisəsinin fəaliyyətini lazımi səviyyədə qura bilmədiyinə, vəzifəsinə məsuliyyətsiz yanaşdığına və nazirliyin qərarlarının icrasını təmin etmədiyinə görə Azərbaycan Dövlət Filarmoniyasının direktoru Murad Adıgözəlzadəyə şiddətli töhmət verilib.

Fəaliyyətsizliyə və vəzifə səlahiyyətlərinin öhdəsindən gəlmədiyinə görə direktor müavini Afət Məlikovaya ciddi xəbərdarlıq edilib.

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin direktoru Şükür Səmədova, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin direktoru Nazilə Yaqubovaya, Dövlət Xor Kapellasının direktoru Xurşid Abdullayevaya, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının direktoru Elçin Abbasova, Azərbaycan Dövlət Rəqs Ansamblının direktoru Zahir Qasımova xəbərdarlıq olunub.

Kollegiyada qəbul olunan qərarların icra vəziyyətinə 6 aydan sonra yenidən baxılması ilə bağlı tapşırıqlar verilib.


## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
N 285 (6313) 22 dekabr 2015







# "Qarabağlar" məhəlləsində qaralan həyatlar

## Biz bu ölkənin vətəndaşı deyilikmi?

**Pirşağı qəsəbəsində "Qarabağlar" adlanan məhəllədə yaşayan sakinlər acınacaqlı durumdadır. Əsasən məcburi köçkünlərin məskunlaşdığı məhəllədə uzun illərdir ki, kommunal problemlər həllini tapmır. Ağdam, Füzuli, Xocalı, Kəlbəcər və başqa rayonlardan məcburi köçkün düşən insanlar sovet dövründən qalan "Pioner laqeri" adlanan binada yaşayır".**

"Qarabağlar" məhəlləsində ümumilikdə 62 ailə yaşayır. Beton konstruksiya ilə tikilən ikimərtəbəli köhnə bina bərbad vəziyyətə düşüb. Tavan çatlayıb, döşəmələr yararsız vəziyyətə düşüb. Yağış suları mənzillərə dolur.

Xocalı rayonundan məcburi köçkün olan **Reyhan Səlimova** düşdükləri acınacaqlı durumdan danışır: "Qardaşım Qarabağ müharibəsində şəhid olub. Atam 40 gün ermənilərin əlində əsir olub. Əzizlərim vətən yolunda canlarını qurban veriblər. Heç bir köməyim yoxdur. Evimin damı pis vəziyyətdədir. Hər yağış yağanda qara günümüz gəlir. Otağın içində gölməçə yaranır. Qab, vedrə qoyub bu yolla qarşısını alırıq. Yağış aramsız yağanda isə evdə durmaq olmur. Hər tərəfimiz rütubət içində olur. Buna baxmayaraq, heç kim bu vəziyyətimizi nəzərə almır. Axı bu vəziyyət nə vaxta kimi davam edəcək...?"

**Şikayətçi Kəmalə Bağırova isə buz kimi soyuq otaqlarda gələcəyin əsgərlərini böyütdüyünü dedi:** "İki oğlum və körpə qızım var.Uşaqlar Laçın məktəbinə gedirlər. Bu məktəb isə evimizdən həddindən artıq uzaqdır. Bu məhəlləyə marşrut işləmədiyindən piyada getməli oluruq. Marşrut məhəllədən çox uzaqda dayanır. Bu səbəbdən qışda palçıq içində oluruq, yayda isə toz-torpaq içində oluruq. Yenə qış qapıdadır, evlərdə indidən soyuqdan yaşamaq mümkün deyil. Yalnız elektrik hesabına qızınırıq. Lakin otaqlar tək elektrik qızdırıcısı ilə isti olmur. Evdə azyaşlı uşaq olduğundan vəziyyətimiz lap çətindir. Gələcəyin əsgərlərini bu şəraitdə böyütmək olarmı?"

**Məcburi köçkünlər qeydiyyatları olmadığı üçün hər hansı bir işlə bağlı arayış ala bilmədiklərini deyirlər:** "11 ildir ki, burada yaşayıram. Məktəb və ya iş üçün bizə sağlamlıq arayışı verilmir. Kənd sovetinə dəfələrlə getmişik, lakin arayış vermirlər. Səbəb kimi bizim burada qeydiyyatda olmamağımızı əsas gətirirlər. Sabunçu rayonunda "Qaçqınkom"unda Akif adlı şəxs deyir ki, sizə arayış vermirəm".

**Xocalı rayonundan məcburi köçkün olan Elmar Bağırov məhəllənin marşrut və kommunal problemləri ilə bağlı aidiyyəti qurumlara müraciət etdiklərini bildirir:** "Mənzillərin damındakı problemlə bağlı çoxsaylı müraciətlər etmişik. Bildirmişik ki, təmirinə özümüz də köməklik edirik. Əsas problemlərdən biri də yol və nəqliyyat problemidir. Uşaqlar piyada 2 kilometrlik məsafəyə yol gedirlər. Gecə yollarda getmək təhlükəlidir. Bir neçə dəfə itlər ahıl yaşlı insanların üstünə hücum etmişdi. 10 ildir ki, bu məhəllədə yaşayıram və uşaqlıqdan bu acınacaqlı həyata qatlaşmağa məcbur olmuşam".

**❑ Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

# Yeni il dünyada necə qeyd edilir?

## 108 dəfə çalınan bürünc zəng, 12 ədəd baş soğan, eyvandan atılan əşyalar və daha nələr...

**Yeni il bütün dünyada eyni vaxtda - dekabrın 31-də keçirilsə də, adətləri bir-birindən xeyli fərqlənir. Hətta yeni ildə açılan süfrələr belə bir-birinə bənzəmir. Biz də Yeni illə əlaqədar maraqlı və qeyri-adi adət-ənənələri olan bir sıra ölkələri araşdırıb maraqlı faktları sizə təqdim etmək qərarına gəldik. Öncə Yeni ilin əsas atributu olan yolkadan başlayaq.**

Yeni il bayramını al-əlvan, bərli-bəzəkli şam ağacsız təsəvvür etmək qeyri-mümkündür. Bir çox yerlərdə Yeni ildə bəzədilən yolkanı xristianlıqla əlaqələndirsələr də, tarixə nəzər salsaq onun heç də xristianlığa bağlı olmadığını görərik. Belə ki, yolkanın bəzənməsi xristianlıqdan əvvəl başlayıb və heç bir dinlə əlaqəsi yoxdur. Hələ Miladdan çox-çox əvvəl qədim Misir sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirlərmiş. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi sayılırmış. Romalılar isə "əkin allahı"nın şərəfinə evlərini yarpaqlarla bəzəyiblər. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 25-də qeyd edilən Adəm və Həvva bayramının rəmzi idi.

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya - Amerikaya yolkanı burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ Evin qarşısında bu mərasim keçirilir. Beləcə şam ağacı bütün dünyada məşhurlaşıb.

Yeni il Rusiyada ən çox sevilən bayramdır. Uşaqlar yeni ildən hədiyyələr, böyüklər isə səadət, xoşbəxtlik gözləyir. Bu ənənənin əsası 300 il bundan əvvəl 1-ci Pyotrun əmri ilə qoyulub. Rusiyada Yeni il gecəsi süfrəyə mütləq müxtəlif yeməklər, salatlar, piroqlar qoyulur. Süfrə nə qədər dolu və gözəl olarsa, qarşıdan gələn il də elə olacaq. Xəmirdən müxtəlif heyvan fiqurları bişirilib gələn qonaqlara paylanır. Süfrənin ortasına mütləq odda qızardılmış donuz balası qoyulur. Süfrəyə quş ətindən heç nə qoyulmur. Çünki onlar hesab edir ki, evdən xoşbəxtlik uça bilər. Yeni ili mütləq təzə paltar və ayaqqabıda qarşılayırlar ki, gələn il də həmişə təzə paltar, ayaqqabı almaq imkanı olsun. Yeni il qabağı hamı çalışır ki, bütün borclarını qaytarsın, küsülülər barışsın. Evdən sınmış qab-qacağı atır, pəncərə və güzgülər parıldayana qədər silinir. Müxtəlif karnavallar, ballar təşkil olunur, hamı səhərə kimi rəqs edir.



Yaponlar ilin sonuncu günündə "Oshogatsu" festivalı keçirir. Yaponiyada evlər təmizlənir və müqəddəs sayılan əşyaların köməyi ilə oradakı pis ruhlar qovulur. Dekabrın 31-də insanlar diləklərini taxta lövhələrə yazaraq həyətdə ipdən asırlar. Həmçinin Yaponiyada budda məbədlərindəki bürünc zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər bir zərbə insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Bununla da gündoğar ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar. Almaniyada bayram axşamı gələn ilin bütün aylarında havanın necə olacağını müəyyənləşdirirlər. Onlar gələcək ilin ayları timsalında 12 ədəd baş soğan götürüb alt tərəflərini kəsir və ora duz səpərək süfrəyə düzürlər. Saat 12-ni vuran kimi soğanlara baxırlar. Hansı soğan duzu əridib udubsa, o aylar yağmurlu, qalanları isə quraqlıq keçəcək.

Şotlandlar isə Yeni il gecəsi məşəl yandıraraq pis ruhları qovmaq üçün əllərində alovla gəzirlər. Onlar bayram gecəsi edilən evlilik təklifinin uğursuzluq gətirəcəyinə, yeni ildə evə ilk girən şəxsin isə özü ilə uğur və ya kədər gətirəcəyinə inanırlar. Əgər bu adam tünd saçlı və əli hədiyyəlidirsə, ev sahibləri onları qarşıda uğurlu il gözlədiyinə inanırlar.

Zəngin və qədim adət-ənənələri olan Hindistanda Yeni il fərqli şəkildə qeyd edilir. Bu bayramın zənginlik və gözəl bir gələcək gətirəcəyinə inandıqları "tanrıya" ibadət etmək və hər yerdə işıqlar yandırmaq hindlilərin adətidir. İtalyanlar isə yeni ildə lazımsız köhnə əşyalarını eyvandan çölə atırlar. Onların inancına görə, təzə ildə köhnə hər şeylə vidalaşmaq lazımdır. Yeni il gecəsi Fransanın küçələrində maskarad kostyumunda olan çoxlu insan görmək olar. İtaliyada il təhvil olanda küçələrdə adamlar çox ehtiyatlı davranmalıdırlar. Çünki italyanlar Yeni il axşamı lazımsız, köhnə əşyaları, hətta mebelləri belə pəncərələrdən küçəyə tullayırlar.

Kubada Yeni il axşamı hamının süfrəsində mütləq üzüm olmalıdır. Hər kəs saatın zəngləri gecə yarısını vurduqda on iki gilə üzüm yeməlidir. Bu, o deməkdir ki, ilin on iki ayında sənin həyatın üzüm kimi şirin olacaq. Rumıniyada Yeni il süfrəsi üçün içərisi sürprizlərlə dolu kökə bişirmək dəbdir. Yağlı kökənin içərisinə daha çox pul, gümüş üzük, acı istiot qoyurlar. Kimin bəxtinə nə çıxdı, çıxdı. Bəxtinə istiot çıxan adam il boyu ehtiyatla dolanmalıdır ki, acı günlər ondan uzaq olsun. Kökəsindən pul və üzük çıxanları isə xoşbəxtlik gözləyir.

Azərbaycanda Yeni il süfrəsində hansı qidaların olması ilə bağlı inanclar yoxdur. Amma Finlandiyada Yeni il süfrəsi gavalı kiseli və düyü sıyığı olmadan təsəvvür edilmir. Macarıstanda Yeni il axşamı milli paltar geymiş cavanlar küçələrə çıxıb musiqi çala-çala gəzməyə başlayırlar. Dəstəbaşı təntənəli surətdə elan edir ki, köhnə ili "dəfn" eləyib yenisini qarşıladığımız üçün hamı yeyib-içib şənlənməlidir. Küçələri gəzən cavanlar hansı evin qabağında dayansalar ev sahibi mütləq onları ləzzətli yeməklərə və şəraba qonaq etməlidir. Macarlar Yeni il süfrəsinə qaz, ördək, toyuq bişirib qoymazlar. Guya Yeni ildə quş əti yeyənin səadəti uçub gedə bilər. Subay qızlar bu adətə daha çox riayət edirlər ki, yeni ildə ərə gedə bilsinlər. Böyük Britaniyada bayram günü evdə ideal təmizlik və qanun-qayda hökm sürməlidir. Gecə düşərkən ailənin başçısı illərin yerdəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapı bağlanır və evə ilk gələcək qonaq həyəcan və səbirsizliklə gözlənilir. İnanca görə, ilin necə keçəcəyi içəri girən adamın görkəmindən çox asılıdır. Qadınlar, sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən uğurlu qonaq kürən kişi hesab olunur. Dəhşətli hadisə, çatmaqaş adamın içəri girməsinə qarşı isə o dəqiqə ehtiyat tədbirlər görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Gələn qonaq özü ilə viski, şirin çörək və kömür gətirməlidir. Kömür ocağa atılır ki, Yeni ildə ailə ocağı daha gur yansın.

Yeni ildə İslandiyada kiçiklər öz valideynlərini xeyli təəccübləndirirlər. Bu balaca çoxbilmişlər Şaxta babanın onlara göz qoymasından ehtiyatlanaraq ay boyu özlərini yaxşı aparır, dəcəllik etmirlər. Əks halda, bayram gecəsi sobanın yanına qoyduqları çəkmələrin içində kartof və ya bir parça kömür tapa bilərlər.

**❑ Hazırladı: Günel MANAFLI**

# YENİ MÜSAVAT

Son səhifə

N 285 (6313) 22 dekabr 2015





**QOÇ** - Yeni əlaqələr yaratmaq, görüşlər təşkil etmək və gələcək planları yenidən götür-qoy etmək üçün şanslarınız artacaq. Nahar ərəfəsində isə xoş təsadüflərlə rastlaşa bilərsiniz.

**BUĞA** - Astroloji göstəricilər ciddi işlərlə məşğul olmağınızı tövsiyə edir. Maliyyə durumunuzun düzəlməsinə az qaldığı üçün usanmamalısınız. Kənar təsirlərə isə qətiyyən aludə olmayın.

**ƏKİZLƏR** - Hazırkı enerjinizi mövcud reallıqdan çıxış yolu tapmağa həsr edin. Qəlbiqara adamlarla ünsiyyəti azaltmağa çalışın. Daha çox öz qərarınızla hərəkət edin. Boş yerə pul xərcləməyin.

**XƏRÇƏNG** - Risk etmək məcburiyyətində qaldığınız güman olunur. Belə məqamlarda tərəddüd etməyiniz yersizdir. Əmin olun ki, cəsarətiniz hesabına çox şeyə nail ola bilərsiniz.

**ŞİR** - Gözləmədiyiniz halda sizə dəstək verilə bilər. Bunun üçün aktivliyinizi birə-beş artırmalı, daxili süstlüyə qapılmamalısınız. Günün ikinci yarısında mərhumlarınızı yad edin.

**QIZ** - Qarşınızda səmərəli bir gün durur. Xoşxasiyyət adamlarla rastlaşacaqsınız. Bu, gələcək planlarınızın reallaşmasına kömək göstərə bilər. Müqəddəs ziyarətgahlara getməyi də unutmayın.

**TƏRƏZİ** - Hər hansı fəaliyyət üçün qənaətbəxş vaxt olmadığından bu təqvimi daha çox istirahətə həsr etməyiniz məsləhətdir. Əgər ovqatınız imkan versə, yaxınlarınıza baş çəkməyə çalışın.

**ƏQRƏB** - Səhhətinizi qoruyun ki, bu təqvimi xoş ovqatda keçirəsiniz. Ələlxüsus da əzələlərinizə diqqət yetirin. Günün ikinci yarısında perspektivli görüşlər və pul gözlənilir.

**OXATAN** - Dekabr ayının ən uğurlu günlərindən birini yaşayacaqsınız. İkitərəfli əməkdaşlıqda, maliyyə məsələlərində hər şey ürəyinizcə olacaq. Amma sevdiyinizə qarşı mülayimlik göstərməlisiniz.

**OĞLAQ** - Yaxşı olar ki, bu təqvimdə əsas diqqətinizi sevgi amilinə yönəldəsiniz. Bu, rahatlığınızı təmin etməklə bahəm, növbəti günlər üçün də sevindirici məqamlarla üzləşəcəyinizə təminat verəcək.

**SUTÖKƏN** - Hər mənada uğurlu bir gün yaşayacaqsınız. Bir tərəfdən iştirakçısı olduğunuz proseslərin ahəngdarlığı, digər tərəfdənsə şəxsi işlərinizdə dönüş yaranması ovqatınızı xeyli yüksəldəcək.

**BALIQLAR** - Aldanma ehtimalınız var. Bu səbəbdən də bələd olmadığınız insanların sözlərilə oturub-durmayın. Yarımçıq işlərinizi yekunlaşdırın. Nahardan sonra səhhətinizin qayğısına qalın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 10 min dollarlıq 10 sent



Amerikanın Dallas şəhərindəki Heritage Hərrac Evində aparatın içinə yapışmış olan 10 sent dəyərindəki pul açıq hərraca çıxarılaraq satılacaq. İstehsal zamanı aparatın arasında qalan və bir tərəfində Amerika prezidentlərindən Franklin Ruzveltin şəkli olan xırda pula ilk qiymət olaraq 10 min dollar qiymət qoyulub. Bundan əvvəl də 1970-ci ildə bir neçə ədəd dəmir pul aparatın içərisində yapışmış halda tapılmışdı. Mütəxəssislər bunun bir qəza deyil, bilərəkdən edildiyini düşünürlər. 10 sent dəyərindəki dəmir pul isə 6 yanvarda hərraca çıxarılaraq satılacaq.



## Xəstənin bağırsağından 15 metr parazit çıxdı

Türkiyədəki xəstəxanalardan birində qeyri-adi hadisə baş verib. 57 yaşlı xəstə qadının nazik bağırsağından 15 metr uzunluqda parazit çıxarılıb. Bursa şəhəri sakini 57 yaşlı Yadigar Erdem arıqlıq, ürək bulantısı, iştahsızlıq və qusma şikayətləri ilə xəstəxananın onkologiya şöbəsinə müraciət edib. Mədə xərçəngi diaqnozu qoyulan qadının mədəsi əməliyyatla götürülüb. Əməliyyat zamanı xəstənin nazik bağırsağında soliter adlı bağırsaq qurdu aşkarlayan həkimlər həmin paraziti də çıxarıblar. Parazitin uzunluğunun 15 metr olması həkimlərin təəccübünə səbəb olub. Xəstəxananın həkimi bu parazitlərin ölçüsünün 6-10 metr arasında olduğunu, ilk dəfə 15 metrlik soliterlə qarşılaşdığını bildirib.

"Bu parazitlərin yumurtaları insanın bədəninə girir və nazik bağırsaqda inkişaf edərək yetkin soliterlər olur. Bundan sonra parça-parça insanın bədənindən tökülürlər. Buradakı yumurtalar yenidən təbiətə səpələnir. Bu parazitlərdən qorunmaq üçün mal əti mənfi 5 dərəcədə saxlanılmalı və yaxşı bişirilməlidir. Təzə meyvə və tərəvəz də yaxşı yuyularaq yeyilməli, lazım gəlsə sirkəli suda bir müddət saxlanılmalıdır" - deyə həkim bildirib.

## Dövlət başçısı cərimələndi

Çeçenistanın dövlət başçısı Ramzan Kadırov maşını təhlükəsizlik kəməri olmadan idarə etdiyi üçün cərimələnib. Ölkə başçısı bildirib ki, o, digər fiziki şəxslər kimi qanuna tabe olaraq cəriməni ödəyib. Məsələ ilə bağlı R.Kadırov öz İnstaqram səhifəsində video paylaşıb və bununla bağlı status yazıb: "Dünyada ideal insan yoxdur. Amma ideal olmağa doğru getmək üçün biz ömür boyu çalışmalıyıq. Təəssüf ki, səhvlər məndə də olur. Bu gün də (dünən-red.) təhlükəsizlik kəmərindən istifadə etmək yadımdan çıxıb. Buna görə məni saxladılar, protokol yazdılar və cərimələdilər. Söz verirəm ki, pulu mütləq ödəyəcəyəm", - deyə o öz səhifəsində yazıb.

Ramzan Kadırov əlavə edib ki, o, həmişə işıqforda maşını saxlayır, yol qaydalarına riayət edir. Bundan sonra isə daha əzmlə riayət edəcək. O, hamını yollarda məsuliyyətli olmağa çağırıb. "Yol hərəkəti qaydalarına riayət edin!" - deyə Kadırov vətəndaşlara müraciət edib. Maşınında uşaq oturacağının olmamasına da izah gətirən prezident əslində bunun da səhv olduğunu bildirib.





## Uşağını sobada bişirdi

Amerikada bir aylıq uşağını sobada bişirən qadına ömürlük həbs cəzası verilib. Belə ki, Kaliforniya ştatında yaşayan 34 yaşlı Ka Yang adlı qadın 1 aylıq qızını mikrodalğalı sobaya qoyub və orada bişirməyə çalışıb. Uşağın ölümündən sonra qadına 26 il azadlıqdan məhrum etmə cəzası verilib. Lakin məhkəmənin qərarı yenidən gözdən keçirilib və ona ömürlük həbs cəzası kəsilib.

2011-ci ildə törətdiyi əmələ görə birinci dərəcəli cinayətkar sayılan qadın hər kəsi şoka salıb. Vəkili onun epilepsiya xəstəsi olduğunu, hadisə zamanı huşunun özündə olmadığını bildirib. Lakin hadisə yerinə gedən polislər uşağın ölümü zaman qadının normal halda olduğunu, heç bir problem yaşamadığını deyiblər.

## Bu ölkədə "əyyaşlıq günləri" başlayıb




Britaniyada polisin təşvişlə gözlədiyi günlər başlanıb. Milad və Yeni il bayramları ərəfəsində "qara cümə" adlanan cümə günlərində ölkədə içib sərxoş olanlar, küçələrdə və ictimai yerlərdə yıxılıb qalanlar, xuliqanlıq edənlərin sayı on dəfələrlə artıb. Milli.az "Daily Mail"ə istinadən bildirir ki, cümə və şənbə günləri, sadəcə, Mançester şəhərində xuliqanlıq və sərxoşluq faktları ilə bağlı polisə 6 mindən artıq şikayət, xəbərdarlıq zəngi olub. Britaniyada polis və xilasetmə xidmətləri gücləndirilmiş iş rejiminə keçib. Polis Yeni ilədək olan həftəsonu günləri "əyyaşlıq günləri" adlandırır.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300